6 oktyabr 2023 №74 (2043)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan regional sülh gündəliyinə sadiqdir



Azərbaycan regional sülh gündəliyinə sadiqdir və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə aparılan Brüssel prosesini yaxından dəstəkləyir.

Prezident İlham Əliyev bu fikri Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə telefon danışığı zamanı vurğulayıb.

Kansler Olaf Şolts oktyabrın 4-də Azərbaycan Prezidentinə zəng edib. Telefon danışığı əsnasında regional məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Olaf Şolts region ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə Almaniyanın dəstəyini ifadə edib. Vurğulayıb ki, ölkəsi Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin rəhbərliyi ilə aparılan Brüssel prosesini dəstəkləyir. Almaniya Kansleri BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici missiyasının Azərbaycanın Xankəndi şəhərinə səfərinin müsbət bir addım olduğunu deyərək bunu yüksək qiymətləndirib.

Prezident mərkəzi hökumət tərəfindən Qarabağın erməni sakinlərinə göstərilən humanitar yardımları qeyd edib, miqrasiya, sosial müdafiə sahələri ilə bağlı yerində erməni sakinlərə xidmətlər göstərildiyini deyib, müvafiq qeydiyyat proseslərinin başladığını və bunun üçün də ayrıca portalın müəyyən edildiyini bildirib.

Dövlətimizin başçısı Azərbaycanın bu sahədə təmin etdiyi şəffaflığın nümayişi olaraq, BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici ofisinin və BMT-nin ixtisaslaşmış təsisatlarının nümayəndələrindən ibarət qrupun əraziyə səfər etdiklərini bildirib, onların da mülki əhaliyə və mülki-ictimai infrastruktura heç bir ziyanın qeydə alınmadığı ilə bağlı müvafiq bəyanatla çıxış etdiklərini diqqətə çatdırıb.

***

Qeyd edək ki, oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin sammiti çərçivəsində Azərbaycan, Ermənistan, Fransa, Almaniya və Avropa İttifaqının iştirakı ilə görüş nəzərdə tutulurdu. Rəsmi Bakı bu formatda Türkiyənin də daxil edilməsində israr etsə də, Avropa tərəfdən buna imkan verilməyib. Belə olan təqdirdə, həmçinin Fransa rəsmilərinin son vaxtlar xüsusilə artan ermənipərəst bəyanatları nəzərə alınaraq, Azərbaycan bu formatda danışıqlarda iştiraka lüzum görməyib.

Qranadada Fransa, Almaniya, Avropa İttifaqı Şurası və Ermənistan rəhbərlərinin iştirakı ilə qeyri-formal görüş keçirilib. Görüşdə Ermənistanın (29 800 kv. km) və Azərbaycanın (86 600 kv. km) suverenliyi, sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına yönəlmiş bütün səylərə sadiqlik ifadə edən bəyanat qəbul olunub.

Aİ Şurasının Prezidenti Şarl Mişel isə jurnalistlərə açıqlamasında Azərbaycan və Ermənistan liderlərini oktyabrın sonunda növbəti görüş üçün Brüsselə dəvət etdiyini bildirib.

*mövzunun davamı səh. 2-də*

# Dünya memarlığının yolları Bakıda kəsişir

## VI Beynəlxalq Memarlıq Müsabiqəsinə 26 ölkədən 200-dən çox iş təqdim olunub

4-6 oktyabr tarixlərində VI Bakı Beynəlxalq Memarlıq Müsabiqəsi keçirilir. Azərbaycan Memarlar İttifaqının Mədəniyyət Nazirliyi ilə birgə təşkil etdiyi ənənəvi müsabiqə bu il Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunub.









Oktyabrın 4-də Beynəlxalq Muğam Mərkəzində (BMM) müsabiqəyə təqdim olunan layihələrdən ibarət sərginin açılışı keçirildi. Açılış mərasimindən əvvəl müsabiqənin münsiflər heyətinin üzvləri Fəxri xiyabanda Ulu öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edib, önünə tər çiçəklər düzüblər. Sonra Şəhidlər xiyabanı ziyarət edilib.

Sərginin açılışı zamanı Azərbaycan Memarlar İttifaqı (AMİ) idarə heyətinin sədri Elbəy Qasımzadə qonaqları salamlayaraq dedi ki, müsabiqə yüksək reytinqə malik dünya memarlıq müsabiqələrinin sırasına daxildir. O, müsabiqəyə daxil olan layihələrin keyfiyyəti, sayı, eləcə də iştirakçıların təmsil etdikləri ölkələr haqqında məlumatı diqqətə çatdırdı. Bildirdi ki, dünya memarları tərəfindən Bakıda keçirilən müsabiqəyə maraq ildən-ilə artır. Bu il müsabiqəyə 26 ölkədən 200-dən çox iş təqdim olunub və sevindirici haldır ki, bu işlərin 37-si yerli memarlara məxsusdur.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanov müsabiqənin əhəmiyyətindən danışaraq Azərbaycanın qədim və zəngin memarlıq ənənələrinin olduğunu vurğuladı: "Azərbaycan xalqı əsrlər boyu özünün memarlıq məktəblərini yaradıb, qədim dövrlərdən bu günümüzə möhtəşəm memarlıq abidələri yadigar qoyub. Son dövrlər ölkəmizin, xüsusən də paytaxt Bakının simasını dəyişən, onun yeni rəmzlərinə çevrilən binalar inşa olunub".

Mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirdi ki, müsabiqə dünyanın tanınmış memarları ilə təcrübə mübadiləsi həyata keçirməyə imkan verəcək, gənc memarların bilik və bacarıqlarının inkişafına təkan olacaq: "Azərbaycan qədim tarixi köklərə malik, müxtəlif coğrafiya və sivilizasiyaların kəsişməsində yerləşən zəngin bir mədəniyyətin sahibidir. Bu mədəniyyətin ən böyük və vacib hissələrindən biri də memarlıqdır. Xalqımızın milli sərvəti olan abidələrin qorunması, tədqiqi və təbliği, onlara qayğı hamımızın gələcək nəsillər qarşısında müqəddəs borcudur. Tarix və mədəniyyət abidələrimiz bu gün dövlət tərəfindən qorunur. Mədəni irsimizin qorunması və gələcək nəsillərə ötürülməsinin təmin edilməsi məqsədilə milli qanunvericilik bazası daim təkmilləşir".

*davamı səh. 2-də*

# Şuşaya hər paytaxt adı yaraşır...

Azərbaycanın mədəniyyət paytaxtı, milli musiqi və söz-sənət beşiyimiz Şuşa ard-arda beynəlxalq miqyasda daha bir mötəbər missiyaya layiq görülüb. Qala-şəhərimiz 2026-cı ildə İqtisadi Əməkdaşlıq Təşkilatının (Economic Cooperation Organization – ECO) "Turizm paytaxtı" olacaq.





Bu barədə qərar təşkilatın 4-5 oktyabrda İranın Ərdəbil şəhərində keçirilən yüksək vəzifəli turizm ekspertlərinin 7-ci və turizm nazirlərinin 5-ci iclaslarının yekununa dair qəbul edilmiş Ərdəbil Bəyannaməsində əks olunub.

Qeyd edək ki, 2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatına Azərbaycan Respublikası sədrlik edir. Ölkəmizin 1992-ci ildə üzv olduğu ECO-ya həmçinin Türkiyə, İran, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Pakistan, Tacikistan, Əfqanıstan daxildir.

Ərdəbildə keçirilən iclaslarda ölkəmizi Dövlət Turizm Agentliyinin nümayəndə heyəti təmsil edib. Tədbirdə üzv dövlətlər arasında turizm sahəsində mövcud əməkdaşlıq perspektivlərinə dair geniş müzakirə aparılıb, müvafiq sahə üzrə qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi istiqamətində görüləcək tədbirlər nəzərdən keçirilib.

İclasda səsvermə nəticəsində Şuşa şəhəri İqtisadi Əməkdaşlıq Təşkilatının 2026-cı il üçün "Turizm paytaxtı" seçilib.

Xatırladaq ki, bu günlərdə (25-26 sentyabr) Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşa şəhərinin 2024-cü il üçün ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" proqramı üzrə namizədliyi irəli sürülüb və yekdilliklə qəbul olunub.

Beləliklə, 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" missiyasını daşıyan Şuşa irəlidəki illərdə də "paytaxt" adları ilə dünyanın diqqətini üzərinə çəkəcək.

## Musiqi forumu keçiriləcək

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Musiqi forumu keçiriləcək.





Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən tədbirlər çərçivəsində oktyabrın 29-31-də gerçəkləşəcək forum Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Bəstəkarlar İttifaqının dəstəyi ilə təşkil olunacaq.

Oktyabrın 29-da "Gülüstan" Sarayında tanınmış musiqişünas alimlərin, bəstəkar, dirijor və ifaçıların iştirakı ilə forumun açılış mərasimi keçiriləcək.

Mədəniyyət ictimaiyyətinin iştirakı ilə geniş müzakirələrin aparılacağı forumda musiqi yaradıcılığı, musiqidə ənənə və onun ötürülməsi, musiqinin istehlakı və təbliği, bu sahənin tədqiqi, xoreoqrafiya və s. mövzular üzrə panellər təşkil olunacaq.

Mütəxəssislərin forum çərçivəsindəki fikir və təklifləri ümumiləşdirilərək "Azərbaycan mədəniyyəti – 2040" Konsepsiyasında öz əksini tapacaq.

Musiqi forumunda iştirak etmək istəyənlər 26 oktyabr tarixinədək onlayn müraciət forması vasitəsilə qeydiyyatdan keçə bilərlər.

## Ədəbiyyat üzrə Nobel mükafatı norveçli yazıçıya verilib

### Novator pyeslərinə və nəsr əsərlərinə görə...

2023-cü ilin ədəbiyyat üzrə Nobel mükafatına norveçli yazıçı-dramaturq Yon Fosse layiq görülüb. İsveçdəki Nobel Komitəsi bunu oktyabrın 5-də elan edib.





Məlumatda bildirilir ki, yazıçı "ifadəsi mümkün olmayanı əks etdirən novator pyeslərinə və nəsr əsərlərinə görə" bu mükafatı qazanıb.

Yon Fosse 1959-cu il sentyabrın 29-da anadan olub. Hekayə, roman, pyeslərlə yanaşı, esse və şeirlər yazır. Zəngin yaradıcılığı "Septologiya" silsilə romanları, 40-dan çox pyes, hekayələr, şeir və esseləri əhatə edir. Əsərləri 40-dan çox dilə tərcümə edilib. 2022-ci ildə ingilis dilinə tərcümə edilən "Yeni ad: Septologiya VI-VII" romanı Buker mükafatının qısa siyahısına düşüb. Yon Fosse həmçinin bədii tərcümə ilə məşğuldur.

Nobel mükafatçısının elan olunmasından öncə İsveç mediasında favoritlər arasında norveçli dramaturq Yon Fosse ilə yanaşı, Çin yazıçısı Can Xue, isveçli və rusiyalı nasirlər Çerstin Ekman və Lyudmila Ulitskaya, keniyalı yazıçı-dramaturq Nquqi Va Thiongo və avstraliyalı yazıçı Cerald Murnine qeyd olunurdu.

Qeyd edək ki, 2022-ci il üçün ədəbiyyat üzrə Nobel mükafatına fransız yazıçı Annie Erno layiq görülüb.

Nobel mükafatı 1901-ci ildən verilir. O cümlədən 120 yazıçı və şair ədəbiyyat sahəsi üzrə mükafatlandırılıb. Alfred Nobelin (1833-1896) vəsiyyətinə görə, bu sahədə mükafat "idealist yönlü ən yaxşı ədəbi əsər"in müəllifinə verilməlidir.

Mükafat ənənəvi olaraq dekabrın 10-da, Nobelin vəfat etdiyi gün qalibə təqdim olunacaq.

Xatırladaq ki, oktyabrın 2-də başlayan Nobel həftəsində bundan öncə fiziologiya və tibb, fizika və kimya sahələri üzrə mükafatçılar elan olunub. 2023-cü ildə hər kateqoriya üzrə Nobel mükafatı 1 milyon dollar təşkil edir.

## Caz festivalında 15 ölkədən musiqiçilər olacaq





6-15 oktyabr tarixlərində Mədəniyyət Nazirliyinin dəstəyi və "Paşa Holdinq"in baş sponsorluğu ilə XVIII Bakı Beynəlxalq Caz Festivalı keçiriləcək. Festival tanınmış caz ifaçılarının konsertləri və digər maraqlı tədbirlərlə cazsevərlərin zövqünü oxşayacaq.

Bu il festivalda 15 ölkədən musiqiçilər, o cümlədən "Gremmi" mükafatı laureatları olan ifaçılar, Amerikadan caz və rep ifaçısı Theo Crocker, arfa caz ifaçısı Edmar Castaneda və Gregoire Maret xüsusi proqramlarla çıxış edəcəklər.

Proqramda gənc caz ifaçılarının ənənəvi "I am Jazzman!" müsabiqəsi də yer alıb. Rəssam Eldar Qurbanovun "Cazın ağ quşları" sərgisi də proqrama daxildir.

Niyazinin mənzilində qardaşının yubileyi



səh. 3

Mədəniyyət Nazirliyi və ICESCO-nun dəstəyi ilə "A-hub Akselerasiya Proqramı"nın icrasına başlanılıb

səh. 3



Yaşıl həyat rəmzidir? Həmişə yox...

səh. 5

# Prezident Səudiyyə Ərəbistanı və İordaniya səfirlərinin etimadnamələrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsini qəbul edib. Dövlətimizin başçısı səfirlə söhbət edib.

Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin və ölkə rəhbərləri arasında dostluq münasibətlərinin olduğunu qeyd edən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini məmnunluqla xatırlayıb. Dövlətimizin başçısı bütün dövrlərdə – həm işğal zamanı, həm də torpaqlarımızın işğaldan azad olunmasından sonrakı dövrdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası məsələlərində Səudiyyə Ərəbistanı Krallığının birmənalı şəkildə göstərdiyi mənəvi və siyasi dəstəyi bir daha yüksək qiymətləndirib.

İqtisadi əməkdaşlığa toxunan dövlətimizin başçısı enerji sahəsində yaxşı nümunələrin olduğunu bildirərək, Səudiyyə Ərəbistanı şirkətinin Azərbaycanda bu sahəyə böyük sərmayə qoymasının önəmini vurğulayıb. Digər sahələrdə də əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edilib.

Ölkəmizə səfir təyin olunmasından böyük şərəf hissi duyduğunu deyən İssam bin Saleh əl-Cuteyli Azərbaycanın Səudiyyə Ərəbistanı üçün dost və qardaş ölkə olduğunu vurğulayaraq müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı konkret təlimatlar aldığını bildirib.

***

Prezident İlham Əliyev oktyabrın 5-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın da etimadnaməsini qəbul edib.

Prezident səfirlə söhbət zamanı Azərbaycanla İordaniyanın dost və qardaş, zəngin tarixə malik ölkələr olduğunu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birini dəstəklədiyini məmnunluqla qeyd edib.

Siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu deyən İlham Əliyev gələcəkdə iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğulayıb.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Ömər Bərəkət əl-Nahar paytaxtımızda gedən böyük inkişaf proseslərinin və insanların firavanlığının onda dərin təəssürat hissi yaratdığını deyib.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

# Qranada görüşündə iştirak etməmək danışıqlardan imtina deyil

Azərbaycan Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə aparılan Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında olan üçtərəfli Brüssel prosesini və regional sülh gündəliyini dəstəkləyir və bu mənada sülh müqaviləsi daxil olmaqla, bir çox sülh təşəbbüslərinin müəllifi məhz Azərbaycandır.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bunu ölkə başçısının oktyabrın 5-də Qranadada (İspaniya) nəzərdə tutulan görüşə qatılmaması ilə bağlı "X" platformasında yayılan paylaşımında bildirib.

O qeyd edib ki, Fransanın regionda qərəzli və militarizasiya siyasətinə, Cənubi Qafqazda regional sülh və sabitliyə zərər gətirən və Avropa İttifaqının Cənubi Qafqaz siyasətini risk altına qoyan addımlarına və rəsmi Bakının israrına baxmayaraq, region ölkəsi olaraq qardaş Türkiyənin beşli formatda (Azərbaycan, Ermənistan, Avropa İttifaqı, Fransa, Almaniya) olan görüşdə iştirakına imkan verilməməsinə görə Azərbaycan Qranadada iştirak etməmək qərarına gəlib. "Biz, həmçinin, ev sahibi olaraq İspaniyanın da bu formatda olan görüşdə iştirakının tərəfdarı idik. Bəzi beynəlxalq media resurslarında bunun Azərbaycanın Ermənistanla təmaslardan və ya danışıqlardan imtina etməsi kimi təqdim edilməsi düzgün deyildir. Azərbaycan Brüsseldə Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında Brüsseldə tezliklə üçtərəfli görüşlərə hazırdır. Azərbaycan tərəfi eyni zamanda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi və sülh müqaviləsi üzrə birbaşa və ikitərəfli dialoqu və danışıqları dəstəkləyir. Fürsətdən istifadə edərək İspaniyadan olan həmkarlarımızı və dostlarımızı Avropa Siyasi İcmasının Qranada görüşünü uğurla təşkil etmələri münasibətilə təbrik edirik və Ermənistan-Azərbaycan dialoquna töhfə vermək niyyətlərinə görə təşəkkür edirik", – deyə Hikmət Hacıyev əlavə edib.

# Berlində Radames, Vyanada Kavaler de Qri

Dünya şöhrətli vokalçımız, Xalq artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru Yusif Eyvazov Avropa səhnələrində çıxışlarını davam etdirir. O, oktyabr ayında 5 dəfə Almaniyanın Berlin şəhərində Unter-Den-Linden Dövlət Operasında C.Verdinin "Aida" operasında Radames partiyasının ifasına dəvətlidir.




Teatrın portalında qeyd edildiyi kimi, budəfəki "Aida" tamaşası tam fərqli quruluşda hazırlanıb, operanın klassik təfsirindən xeyli seçilir. Rejissor Kaliksto Bieyto, dirijor Nikola Luisottinin birgə rəhbərliyi ilə hazırlanmış tamaşanın premyerası ayın 3-də oynanılıb. Növbəti tamaşalar 6, 9, 12 və 15 oktyabr tarixlərində oynanılacaq. Bu tamaşaların hamısında Yusif Eyvazov səhnəyə çıxacaq.

29 oktyabr, 1, 5 və 8 noyabr tarixlərində isə Vyana Dövlət Opera Teatrında C.Puççininin "Manon Lesko" operasından zövq almağa gələnlər Kavaler de Qrinin partiyasını Yusif Eyvazovun səsindən dinləyəcəklər. Operanın titul partiyasını isə Yusif Eyvazovun həyat yoldaşı, Azərbaycanın və Rusiyanın Xalq artisti Anna Netrebko ifa edəcək.

**Gülcahan**

# Dünya memarlığının yolları Bakıda kəsişir

## VI Beynəlxalq Memarlıq Müsabiqəsinə 26 ölkədən 200-dən çox iş təqdim olunub

*əvvəli səh. 1-də*

Qeyd olundu ki, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli fərmanı ilə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması, ötən müddət ərzində dövlət başçısının göstərişi ilə bir çox abidələrdə bərpa-konservasiya işlərinin həyata keçirilməsi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən də çox böyük layihələrin icra olunması bu sahəyə göstərilən diqqətin bariz nümunəsidir.





### Azad olunmuş ərazilərdə müasir şəhərsalma təcrübəsi tətbiq edilir

Nazir müavini bildirdi ki, Azərbaycanın işğaldan azad olunan Qarabağ və Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Burada sadəcə bərpa deyil, eyni zamanda "ağıllı kənd"lər və "ağıllı şəhər"lər inşa olunur, ən müasir şəhərsalma təcrübəsindən istifadə edilir. Bu isə memarlarımız və memarlığımız üçün ciddi sınaqdan başqa, həm də yeni imkanlar açır.

Səadət Yusifova çıxışının sonunda müsabiqə iştirakçılarına uğurlar arzuladı.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov müsabiqənin əhəmiyyətini qeyd edərək gələcəkdə yerli memarların əməyinin dəyərləndirilməsi, şəhərsalmada yerli memarlara müraciətin vacibliyini vurğuladı.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova çıxışında 2000-ci illərin əvvəlindən Azərbaycanın yeni memarlıq mərkəzinə çevrildiyini dedi, müsabiqənin gənc memarlar üçün əhəmiyyətinə diqqəti çəkdi.

Açılış mərasimindən sonra VI Bakı Beynəlxalq Memarlıq Müsabiqəsi münsiflər heyətinin iştirakı ilə mətbuat konfransı təşkil edildi.

Müsabiqə 7 nominasiya üzrə keçirilir: "İctimai binaların memarlığı sahəsində həyata keçirilmiş ən yaxşı layihə", "Yaşayış binalarının memarlığı sahəsində həyata keçirilmiş ən yaxşı layihə", "Həyata keçirilmiş ən yaxşı interyer", "Həyata keçirilməmiş ən yaxşı layihə", "Landşaft memarlığı sahəsində həyata keçirilmiş ən yaxşı layihə", "Binaların bərpası və yenidən qurulması sahəsində həyata keçirilmiş ən yaxşı layihə", "Memarlıq sahəsində ən yaxşı nəşr".

Qaliblər oktyabrın 6-da elan ediləcək.

Müsabiqənin münsiflər heyətində Deniz İncedayı (Türkiyə), Kevin Bingham (Cənubi Afrika), Divya Kuş (Hindistan), Giuseppe Cappochin (İtaliya), Leo Orellana (Çili) və Elbay Qasımzadə (Azərbaycan) yer alıb.

### Beş müsabiqədə mindən çox layihə

Xatırladaq ki, Bakı Beynəlxalq Memarlıq Müsabiqəsi ilk dəfə 2013-cü ildə keçirilib və ənənəvi olaraq iki ildən bir təşkil edilir. Müsabiqənin münsiflər heyəti Beynəlxalq Memarlar İttifaqı tərəfindən tövsiyə olunan dünya şöhrətli memarlardan ibarətdir. Ötən 10 ildə münsiflər heyətində Mişel Barmaki (Livan), Vassilis Squtas (Yunanıstan), Tomas Vonier (ABŞ), Hayder Ali (Sudan), Patrik Kolombiye (Fransa), Esa Mohamed (Malayziya), Katerine Jakot (Fransa), Viti Nsalambi (Anqola), İn-Souk Ço (Cənubi Koreya), Viktor Leonel (Anqola), Jozef Kuan (Honq-Konq) və E.Qasımzadə kimi tanınmış memarlar təmsil olunublar.

Ümumiyyətlə, 2013-2021-ci illər ərzində müsabiqədə dünyanın 53 ölkəsindən memarlar mindən çox layihə ilə iştirak ediblər. Ötən beş müsabiqədə Portuqaliya, Fransa, ABŞ, Sloveniya, Gürcüstan, Yaponiya, Rusiya, Mərakeş, Xorvatiya, İtaliya, Banqladeş, İspaniya, Ukrayna, Almaniya, Vyetnam, Sinqapur, Qırğızıstan, Yunanıstan, Malayziya, Cənubi Afrika, Misir, Çin, İran, Keniya, BƏƏ, Meksika, Rumıniya, Polşa, Hindistan və Azərbaycandan memarlar qalib olublar.

**Lalə Azəri**

# Beynəlxalq Memarlar İttifaqının üzvləri AzMİU-da olublar

Oktyabrın 5-də Beynəlxalq Memarlar İttifaqının prezidenti və müxtəlif ölkələrdən olan üzvləri Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) olublar.



Rektor Gülçöhrə Məmmədova qonaqlara universitet haqqında məlumat verib. O, ölkəmizdə memarlıq və inşaat sahəsi üzrə 100 illik ali təhsil ənənəsinin olduğunu vurğulayaraq bildirib ki, Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci ildə yaradılan AzMİU o zamanlar öz profili üzrə Cənubi Qafqazın ən böyük ali təhsil müəssisəsi olub: "Bu gün universitetdə memarlığın və inşaatın bütün istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir. On bir minə yaxın tələbəmiz, əlli mindən çox məzunumuz var. Bu da ölkəmizdə inşaat sahəsinin, memarlığın inkişafı ilə əlaqədardır". Vurğulanıb ki, işğaldan azad olunan torpaqlarımızda aparılan geniş quruculuq işləri memarlara və inşaat mühəndislərinə tələbatı xeyli artırıb.

Rektor diqqətə çatdırıb ki, Dünya Universitetləri Assosiasiyasına üzv olan AzMİU-nun memarlıq və inşaat mühəndisliyi üzrə dünyanın ən qabaqcıl ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri mövcuddur. Kadr hazırlığında tədrislə yanaşı, praktik vərdişlərin formalaşdırılmasına da üstünlük verilir. Müəllim və tələbələrin Dünya Memarlar Konqresində iştirakı, məşhur memarlarla ünsiyyəti və əlaqə qurması təmin olunur.

Azərbaycan Memarlar İttifaqının sədri, AzMİU-nun kafedra müdiri Elbay Qasımzadə çıxışında ölkəmizdəki qədim alban məbədlərinə diqqət çəkərək qeyd edib ki, bu məbədlərin böyük əksəriyyəti vaxtilə işğal altında olub və ermənilərin təxribatlarına məruz qalıb: "Azərbaycanda alban və xristian memarlığını mərhum professor Davud Axundov araşdıraraq dünyaya təqdim edib. Professor Gülçöhrə Məmmədova onun davamçısı olaraq bu işləri davam etdirir. Hesab edirəm ki, işğaldan azad olunmuş ərazilərimizdə saxtalaşdırılan memarlıq abidələrimiz onun rəhbərliyi ilə peşəkar memarlarımız tərəfindən yüksək səviyyədə bərpa edilərək öz görkəminə qaytarılacaq".

Beynəlxalq Memarlar İttifaqının prezidenti, meksikalı professor Xose Luis Kortes görüş üçün təşəkkürünü bildirib və Azərbaycanda memarlığa, xüsusilə ölkənin memarlıq təhsilinə qayğının hiss olunduğunu deyib. O, həmçinin dünyanın müxtəlif ölkələrində apardığı tədqiqatlar, memarlığın inkişafı ilə bağlı araşdırmaları haqqında məlumat verərək AzMİU-nun memarlıq ixtisası üzrə professor-müəllim heyəti ilə əməkdaşlığa açıq olduğunu qeyd edib.

Türkiyənin Memar Sinan Universitetinin professoru Deniz İncedayı, memarlığın inkişafı üzrə nüfuzlu "Barbara Kappoçin" Fondunun prezidenti Cüzeppe Kappoçin, Hindistan Memarlıq İnstitutunun professoru Divya Kuş, Cənubi Afrika Respublikasından olan memar, "FGG Architects Inc" şirkətinin direktoru Kevin Bingham görüşə görə minnətdarlıqlarını bildirib, Bakıda gördükləri memarlıq nümunələri ilə bağlı fikirlərini bölüşüb, AzMİU ilə əməkdaşlıq perspektivlərindən söz açıblar.

Qonaqlar universitetin Memarlıq fakültəsinin maddi-texniki bazası, tədris laboratoriyaları, tələbələrin kurs işləri, müxtəlif zamanlarda müəllim və tələbələr tərəfindən icra edilən layihələrin eskizləri ilə tanış olublar.

# Separatçılar olmaları gərəkən yerdədirlər...

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Qarabağ ərazisində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı başlanmış cinayət işləri üzrə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Baş Prokurorluq tərəfindən kompleks tədbirlər həyata keçirilir.




Qarabağdakı hərbi-kriminal rejimin rəhbərlərindən olmuş Arayik Harutyunyan, Bako Saakyan, Arkadi Qukasyan və David İşxanyan tutularaq Bakıya gətirilib və barələrində müvafiq məhkəmə qərarları ilə həbs qətimkan tədbiri seçilib.

DTX və Baş Prokurorluğun oktyabrın 5-də yayılan birgə məlumatında bildirilir ki, araşdırmalar zamanı Azərbaycanın Xankəndi şəhərində anadan olmuş, 1973-cü il təvəllüdlü Arayik Harutyunyan tərəfindən Azərbaycan Respublikasının ərazisində qondarma "Dağlıq Qarabağ Respublikasının prezidenti" və digər adlar altında təcavüzkar müharibənin aparılmasında iştirak edilməsi, muzdluların yığılması, onlara təlim keçirilməsi və maliyyələşdirilməsinə, həmçinin onlardan hərbi əməliyyatlarda istifadə edilməsinin təşkil olunmasına, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulmasına, silahlı münaqişə dövründə cinayətkar əmr verilməsinə əsaslı şübhələr müəyyən edilib.

İstintaq-əməliyyat tədbirləri nəticəsində, həmçinin A.Harutyunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikası ərazilərinin davamlı şəkildə minalanması, 2020-ci ildə 44 günlük müharibə zamanı cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır nəticələrə səbəb olan ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilib.

Arayik Harutyunyan 2020-ci il oktyabrın 28-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilib. Cari il oktyabrın 3-də o, DTX tərəfindən Xankəndi şəhərində saxlanılıb, ona Cinayət Məcəlləsinin 100, 116, 117, 120, 214, 214-1, 214-3, 218, 279-cu və digər maddələri ilə ittiham elan edilib.

Bundan əlavə, DTX tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanın Xankəndi şəhərində anadan olmuş 1957-ci il təvəllüdlü Arkadi Qukasyan, həmin şəhərdə anadan olmuş 1960-cı il təvəllüdlü Bako Sahakyan və Azərbaycanın Xocavənd rayonunda anadan olmuş 1958-ci il təvəllüdlü Davit İşxanyan 3 oktyabr 2023-cü il tarixində saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan edilməklə cinayət məsuliyyətinə cəlb ediliblər.

Hazırda cinayət işləri üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# İnnovativ inkişaf sahəsində təşəbbüslərin dəstəklənməsi üçün

## "A-hub Akselerasiya Proqramı"nın açılış mərasimi keçirilib





Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO-nun dəstəyi, "New Space Innovation" MMC-nin təşkilatçılığı, "Kapital Bank" və Bakı Dövlət Universitetinin tərəfdaşlığı ilə "A-hub Akselerasiya Proqramı"nın icrasına başlanılıb.

Oktyabrın 4-də YARAT Müasir İncəsənət Məkanında proqramın açılış mərasimi keçirildi. Mərasimdə ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, Mədəniyyət Nazirliyinin rəsmiləri, digər qurumların məsul şəxsləri iştirak edirdilər.

ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik və mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxış edərək qonaqları salamladılar, proqram iştirakçılarına uğurlar arzuladılar.

Sonra "A-hub Azerbaijan – 2023" iştirakçılarının videotəqdimatı oldu, proqramla bağlı və müxtəlif mövzularda çıxışlar dinlənildi.

Qeyd edək ki, layihə ICESCO-nun üzvü olan ölkələrdə 2021-ci ildən etibarən innovativ inkişaf sahəsində təşəbbüslərin dəstəklənməsi, biznes subyektlərinin və gənclərin bu sahəyə marağının artırılması, mədəniyyət sahəsi ilə özəl yaradıcı sahibkarlıq subyektlərinin əlaqələndirilməsi məqsədilə həyata keçirilir.

Bu il proqrama Bakı, Sumqayıt və Gəncədən 14 komanda müraciət edib. Komandalar 6 həftəlik akselerasiya keçdikdən sonra öz startaplarını milli finalda təqdim edəcəklər. Milli finalda qalib gələn komandalar böyük finalda iştirak etmək imkanı qazanacaqlar.

**Nurəddin**

# Dirijor Çingiz Hacıbəyovun 110 illiyi qeyd edildi



Oktyabrın 4-də Niyazinin Mənzil-Muzeyində Əməkdar incəsənət xadimi, dirijor Çingiz Hacıbəyovun (1913-1971) anadan olmasının 110 illiyinə həsr edilən tədbir keçirildi.

Tədbiri muzeyin direktor müavini Təranə Zeynalova açaraq Çingiz Hacıbəyovun həyatı ilə bağlı aparılan araşdırmalardan danışdı. Diqqətə çatdırdı ki, sənətkara aid sənədlərdə, o cümlədən vaxtilə işlədiyi Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasından əldə edilən əmək kitabçasında onun yalnız anadan olduğu il göstərilirdi. Muzey kollektivinin birgə araşdırmaları nəticəsində Çingiz Hacıbəyovun doğum gününün 2 oktyabr olduğu müəyyən edildi.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin şöbə müdiri Xanım Abdinova çıxışında Hacıbəyovlar nəslinin musiqi mədəniyyəti tariximizdə əvəzolunmaz xidmətlərindən danışdı. Qeyd etdi ki, Çingiz Hacıbəyov dahi bəstəkar Üzeyir Hacıbəylinin qardaşı, ölkəmizdə musiqili teatrın yaradıcılarından olan Zülfüqar Hacıbəyovun oğlu, maestro Niyazinin qardaşıdır. O, 1921-ci ildə Bakıda fəaliyyət göstərən türk musiqi məktəbində skripka sinfində təhsil alıb. 1932-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında skripkaçı kimi əmək fəaliyyətinə başlayıb. Müxtəlif vaxtlarda Azərbaycan Xalq Komissarları Soveti nəzdində Radio Komitəsinin simfonik orkestrində, Dövlət Musiqili Komediya Teatrında, Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrində işləyib. Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində pedaqoji fəaliyyətlə məşğul olub. Çingiz Hacıbəyov 1971-ci il yanvarın 18-də Bakıda vəfat edib. II Fəxri xiyabanda dəfn olunub.

Çıxışlar muzeyin arxiv materialları əsasında hazırlanan slayd-şou ilə müşayiət olundu.

Tədbirin bədii hissəsində Azərbaycan və Avropa bəstəkarlarının əsərlərindən ibarət musiqi proqramı təqdim edildi.

**S.Fərəcov**

# Heydər Əliyev obrazı təsviri sənətdə



"İrsimizin Tədqiqi və Təbliği" İctimai Birliyi (İB) tərəfindən QHT-lərə Dövlət Dəstəyi Agentliyinin qrantı hesabına "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" layihəsi həyata keçirilir. Ulu öndərin 100 illiyinə həsr olunan layihə çərçivəsində Xətai Sənət Mərkəzində "Heydər Əliyev obrazı təsviri sənətdə" adlı tədbir təşkil edilib.

Birliyin sədri Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı Ümummilli lider Heydər Əliyevin mədəniyyətə, incəsənətə qayğı və diqqətindən danışıb, layihə çərçivəsində görülən işlərdən bəhs edib.

Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev "Heydər Əliyev və təsviri sənət" mövzusunda apardığı tədqiqatlardan söz açıb, bu yaxınlarda eyniadlı kitabının işıq üzü görəcəyini qeyd edib.

Xalq rəssamı Arif Hüseynov Heydər Əliyevin rəssamlarla səmimi münasibətindən, onların emalatxanalarına gedərək gördükləri işlərlə yaxından tanış olmasından bəhs edib.

Rəssam, heykəltaraş Rafiq Quliyev də öz xatirələrini bölüşüb.

Tədbirdə mərhum sənətşünas Rafael Abbasovun çəkdiyi Heydər Əliyevin portretləri nümayiş olunub. Qeyd edilib ki, portretlərin orijinalları ölkəmizin müxtəlif bölgələrinin muzeylərində saxlanılır.

Rəssamlardan Minayə Feyzullayeva, Aygün Nağıyeva, İlham İsayev və Xatirə Tapdıqovanın da mövzuya dair əsərləri təqdim olunub.

# "Cümhuriyyətin üzü"

## Aşıq Veysəlin vəfatının 50-ci ildönümü Bakıda qeyd olunub

Beynəlxalq Muğam Mərkəzində Aşıq Veysəlin (1894-1973) vəfatının 50-ci ildönümü ilə əlaqədar "Cümhuriyyətin üzü" adlı konsert proqramı təqdim olunub. Tədbir Bakı Yunus Əmrə İnstitutunun təşkilatçılığı ilə gerçəkləşib.




Yunus Əmrə İnstitutunun rəhbəri Səlçuk Karakılıç çıxış edərək Aşıq Veysəlin yaradıcılığından söz açıb: "Aşıq Veysəl Türkiyənin xaotik məsələlərinə iç səsinin əks-sədası ilə səslənə bilən, böyük problemləri böhrana çevirmədən Türkiyənin siyasi və mədəniyyət xadimlərinə təkliflər verə bilən böyük bir sənətkar idi. Yalnız öz faciəsini yazmayıb, ona romantik şair deyə bilərdik, amma Veysəl Türkiyə və türk milləti mövzularını cəsarətlə qələmə aldığı üçün milli romantik şairdir".

Tədbirdə Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı, Şimali Kipr Türk Cümhuriyyətinin Azərbaycandakı təmsilçisi Ufuk Arca Turganer, mədəniyyət, incəsənət xadimləri iştirak ediblər.

Xatırladaq ki, tədbir Türkiyə Cümhuriyyətinin 100 illiyi və Türkiyədə qeyd olunan "Aşıq Veysəl İli" çərçivəsində reallaşıb.

Gecədə Əməkdar artist Nuriyyə Hüseynova, Həlimət Sultan, Ülviyyə Sədaqət və Çilənay Hüseynova orkestrin müşayiəti ilə Aşıq Veysəlin sevilən mahnılarını səsləndiriblər.

# "Bülbül vokal məktəbi"nin dərsləri başlayıb

Xəbər verdiyimiz kimi, Əməkdar artist, tanınmış vokal ifaçısı Ramil Qasımov tərəfindən bu sənətə yeni gələn gənclər üçün "Bülbül vokal məktəbi" yaradılıb. Artıq məktəbin ilk dərsi keçirilib.

Əməkdar artist qeyd edib ki, məqsədimiz dahi Bülbülün bizə miras qoyduğu Azərbaycan vokal məktəbinin ənənələrini gələcək nəsillərə aşılamaqdır. O, 137 namizəd arasından seçdiyi 10 tələbə ilə təmənnasız dərslərə başladığını deyib.

Ramil Qasımov məktəbə seçilən tələbələrin konsertlərinin təşkil olunacağını, Bülbülün Memorial Muzeyində musiqi axşamlarının keçiriləcəyini də diqqətə çatdırıb.

Sonda tələbələrə Azərbaycan professional vokal sənətinin banisi Bülbülə həsr olunmuş kitablar, disklər hədiyyə olunub.

# "Çox sağ olun, müəllimlər!"

5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə Bakıdakı Rus Evində (Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi) konsert keçirilib.



"Çox sağ olun, müəllimlər!" adlı konsertin solistləri Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gəncliyə dəstək" layihəsinin iştirakçıları olublar.

Filarmoniyadan bildirilib ki, konsertdə respublika və beynəlxalq müsabiqələrin laureatları Fərəh Əliyeva (fortepiano), İbrahim Abbasov (tar), Ayşən Umudova (fortepiano), Yasəmən Umudova (fortepiano), Nuray Cəbizadə (fortepiano), Nailə Növrəsli (vokal), Mələk Həsənli (piano), Adnan Kərimli (zərb alətləri), Cəlalə İsmayılzadə (violonçel), Mirşah Növrəsli (vokal) və digərləri çıxış ediblər.

Proqramda Fikrət Əmirov, Tofiq Quliyev, Emin Sabitoğlu, Müslüm Maqomayev, Vaqif Mustafazadə, Yohann Ştraus, Yan Sibelius və başqalarının əsərləri səsləndirilib.

"Gəncliyə dəstək" layihəsi Azərbaycan Dövlət Akademik Filarmoniyası tərəfindən həyata keçirilir. Layihənin məqsədi Azərbaycanda gənc istedadların aşkar edilməsi və dəstəklənməsidir. Layihənin ideya müəllifi və bədii rəhbəri filarmoniyanın direktoru Murad Adıgözəlzadə, koordinatoru direktorun müavini Ayla Kərimova-Zəkəriyyədir.

Sonda Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin rəhbəri İrek Zinnurov konsertin təşkilatçı və iştirakçılarına təşəkkürnamə təqdim edib.

# Fortepiano triosunun konserti



Oktyabrın 4-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında Azərbaycan Dövlət Fortepiano Triosunun konserti keçirilib.

Kamera musiqisi axşamında Əməkdar artistlər Töhfə Babayeva (bədii rəhbər, violin), Elnarə Kəbirlinskaya (piano) və Səbinə İbrahimovanın (cello) ifasında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib.

Azərbaycan Dövlət Fortepiano Triosu 2002-ci ildə Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə yaradılıb. Trio görkəmli Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri ilə yanaşı, gənc bəstəkarların da əsərlərinin təbliğçisidir. Rusiya, Türkiyə, Almaniya və s. ölkələrdə çıxış edib.

# Milyonçu özbək kəndlisinin xeyirxahlığı



Qastrollar hər bir truppanın nəbzinin rəvanlığını təmin edən amillərdəndir. Azərbaycan Dövlət Akademik Musiqili Teatrı ilə Özbəkistanın teatrları arasında əməkdaşlıq memorandumlarının təzahürü olaraq qardaş ölkədən daha bir yaradıcı kollektivin Bakıya qastrol səfəri gerçəkləşdi. Özbəkistanın Əlişir Nəvai adına Namanqan Vilayət Musiqili Dram və Komediya Teatrı 2-3 oktyabr tarixlərində Akademik Musiqili Teatrın səhnəsində "Ah, bu qocalar – qəribə qocalar!" komediyası ilə çıxış etdi.

Tamaşa özü kasıb, pula ehtiyacı olsa da, əldə etdiyi vəsaiti xeyirxahlıq işlərinə, məsələn, Afrikanın aclıq çəkən əhalisinə sərf etmək qədər mənəvi zənginliyi olan Murad adlı bir ahıldan və onun ailə üzvlərindən, qonşularından, dost-tanışlarından bəhs edir. Özbəkistanın Xalq şairi Oxunjon Həkimovun qələmə aldığı, Marufjon Niyazovun səhnələşdirib quruluş verdiyi əsərdə maddi imkanın insanın ətrafındakı bütün doğma və qeyri-doğma şəxslərlə münasibətlərinə necə dərin təsir etdiyi real cizgilərlə çatdırılır.

Dünən Murad kişi (aktyor B.Curayev) kasıb idi, gəlini Kəbirə (Özbəkistanın Əməkdar artisti M.Abdullayeva) onunla saymazyana davranırdı, bu gün isə onun lotereyada böyük məbləğ uduğu ortaya çıxan kimi saymazyanalıq ədəb-ərkan, hörmət-izzətlə əvəz olunur. Bundan xəbər tutan kənd əhli arasında Murad kişiyə ərə gəlməyə razı olan bir qadın da tapılır.

Murad kişi əvvəl buna çox şad olur. Amma lotereya uduşunun səhvən onun biletinə aidiyi aşkar olanda cavan arvadı ondan üz döndərir. Çap səhvi üzündən baş verən yanlış uduş məyusluğu uzun çəkmir. Məhkəmənin qərarını əks etdirən məktub gəlib çıxır. Məktubda Murad kişinin vaxtilə ona dəymiş mənəvi ziyana görə heç də az olmayan məbləğdə təzminat almaq imkanı bildirilir.

Murad kişi bu məbləği Afrikada aclıqdan əziyyət çəkən əhaliyə göndərmək istəyir. Amma dostları onu başa salırlar ki, Afrikada hökumətlər özü öz əhalisinin qeydinə qalar. Və o, təzminat vəsaitini ailə təsərrüfatının qurulmasına sərf etmək qərarına gəlir. Bu rolun ifaçısının başqalamaq bacarığı xüsusi qeyd edilməlidir.

1970-ci illərin Özbəkistan kəndlərindən birinin sakinlərinin həyatından bəhs edən və özbək dilində oynanılan tamaşa nikbin sonluqla yekunlaşdı.

Sənət axşamı iki qardaş ölkənin teatr təmsilçilərinin təşəkkür çıxışları və özbək ifaçısının musiqi nömrəsi ilə davam etdi.

***

Tamaşadan sonra Namanqan Vilayət Musiqili Dram və Komediya Teatrının rejissoru və aktyoru Marufjon Niyazovdan "Mədəniyyət" qəzeti üçün qısa müsahibə aldıq:

*– Teatrınızın əsası nə vaxt qoyulub? Neçə ildir burada çalışırsınız?*

– Bizim teatr 1931-ci ildən fəaliyyətdədir. Onun yaradılmasında bir neçə pedaqoq yaxından iştirak edib. Truppa 1931-ci il iyunun 15-də "İki kommunist" tamaşası ilə tamaşaçıların qarşısına çıxıb. İlk onillik ərzində teatrımız özbək müəlliflərin əsərlərini tamaşaya qoyub. Özümə gəlincə, artıq 40 ildir bu teatrdayam.

*– Bu tamaşa nə vaxtdan repertuardadır? Onu başqa hansı ölkələrdə göstərmisiniz?*

– "Ah, bu qocalar – qəribə qocalar!" tamaşası 15 ildir repertuardadı. Onunla Orta Asiya respublikalarının hamısında çıxış etmişik. Ümumilikdə repertuarımızda 20-dən çox tamaşa var. Hər gün səhnəmizdə tamaşa oynanılır.

*– Daha çox hansı tamaşalara maraq var?*

– Komediyalara baxmağı daha çox sevirlər.

Bir neçə kəlmə də əsərin mərhum müəllifi haqqında. Oxunjon Həkimovun (1934-2020) yaradıcılıq yolu 1950-ci illərin sonlarında başlayıb. Çoxlu sayda nəzm əsərləri toplusu və oçerklər müəllifi kimi özbək mədəniyyətində iz qoyub, ədəbiyyat aləmində lirik şair kimi tanınıb. Bütün əsərlərində insan xoşbəxtliyini, inam və mənəviyyatı ön plana çəkib. Yumoru da təbii və düşündürücüdür.

**Samirə Behbudqızı**

# Ulu öndər Azərbaycanı məhz belə görmək istəyərdi...

Astara rayon Heydər Əliyev Mərkəzində "Bugünkü Azərbaycan Ulu öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır" mövzusunda tədbir keçirilib.



Çıxışlarda bildirilib ki, Azərbaycan xalqının taleyində Heydər Əliyevin adı ilə bağlı əlamətdar günlərdən biri 1993-cü ilin 3 oktyabrıdır. Həmin gün xalqımız özünün gələcək taleyini, müqəddəratını həll edən seçim edib. Ölkəmizdə keçirilən prezident seçkilərində Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazanıb.

Sonda tədbir iştirakçıları Heydər Əliyev Mərkəzi və Astara Dövlət Rəsm Qalereyasının birgə təşkil etdiyi sərgi ilə tanış olublar.

***

Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycanda qadın siyasəti" mövzusunda toplantı keçirilib. Çıxışlarda qeyd olunub ki, Ulu öndər qadınların idarəetmə və sosial həyatın bütün sahələrində irəli çəkilməsini vacib bilib, onun imzaladığı müvafiq fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində mühüm addımlar olub.

Qax şəhərindəki Heydər Əliyev Mərkəzində "Heydər Əliyev İli" münasibətilə keçirilən toplantı eyni mövzuya həsr olunub. Vurğulanıb ki, Ümummilli lider istər sovet dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi zamanı Azərbaycan qadınlarının ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunun artırılması məsələlərinə böyük diqqət ayırıb.

# "Qərbi Azərbaycan aşıqları" şeir antologiyası hazırlanır

Azərbaycan Aşıqlar Birliyi (AAB) yeni layihəyə başlayıb. Yaradıcılıq təşkilatında bu dəfə Qərbi Azərbaycan aşıqlarının yaradıcılıq nümunələrindən ibarət antologiya hazırlanır.

Qərbi Azərbaycanın ayrı-ayrı mahallarında – İrəvan, Zəngəzur, Dərələyəz, Göyçə, Qaraqoyunlu, Dərəçiçək, Loru və Ağbabada yaşayıb-yaratmış ustad sənətkarların zəngin ədəbi irsindən nümunələr yer alacaq toplu soydaşlarımızın dədə-baba yurdu olan bu ərazilərdə sənət ənənəsi, tarixi-mədəni prosesin inkişafı haqqında bilgi vermək baxımından mühüm bir qaynaq olacaq.

AAB-nin katibi Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, antologiyanın hazırlanmasında əsas məqsəd regionun söz-sənət yükünü qoruyub gələcək nəsillərə çatdırmaq, eyni zamanda sənətə yenicə qədəm qoyan yeniyetmə və gənclərin repertuar zənginliyini genişləndirməkdir.

Topluda XVI əsrdə yaşayıb-yaratmış Miskin Abdaldan üzü bəri bir çox saz-söz ustadlarının – Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Məhərrəm Alçalı, Ululu Kərim, Çobankərəli Cəfər, Dərələyəzli Aşıq Cəlil, Aşıq Qəhrəman, Əsəd Rzayev, Ozan Heydər, Xəstə Hasan, Nəsib Ağbabalı, İsgəndər Ağbabalı kimi sənətkarlarla yanaşı, erməni təcavüzü nəticəsində öz dədə-baba yurdlarından didərgin düşüb, bu gün Azərbaycanın müxtəlif guşələrində yaşayaraq Qərbi Azərbaycandakı aşıq sənəti ənənəsini yaşadan çağdaş aşıqların yaradıcılığı da əks olunacaq.

# Gəncə Dövlət Dram Teatrının festival sorağı

Gəncə Dövlət Dram Teatrı bu ay Türkiyədə keçiriləcək iki beynəlxalq festivala dəvət alıb. Bunlar 11-15 oktyabrda Avrasiya Teatrlar Birliyi tərəfindən təşkil ediləcək V Maltepe Beynəlxalq Teatr Festivalı (İstanbul) və 12-22 oktyabr tarixlərini əhatə edəcək XV ETHOS Beynəlxalq Teatr Festivalıdır (Ankara).



Teatr hər iki festivala Tural Vaqifoğlunun quruluş verdiyi Ejen İoneskonun "Kral ölür" tamaşası ilə qatılacaq.

Bundan əlavə, kollektiv Azərbaycan teatrının 150 illiyi münasibətilə Türkiyənin Amasya və Gürcüstanın Ozurqeti şəhərlərində qastrol səfərlərində olacaq.

Qeyd edək ki, İstanbul festivalında münsiflər heyətində teatrın direktoru Aqil Bəhramlı, Avrasiya Teatrlar Birliyinin ölkə təmsilçilərinin toplantısında isə teatrın aktyoru Yusif Cəfərov yer alacaqlar.

# Vətən müharibəsində azad edilən ilk şəhərimiz

## Cəbrayıl Şəhəri Günü münasibətilə tədbirlər keçirilib

Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində 4 oktyabr – Cəbrayıl Şəhəri Gününə həsr olunan tədbir keçirilib. Tədbirdə şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub. Mərkəzin direktoru Anar Kəkəyev Cəbrayıl şəhərinin işğaldan azad olunmasının Vətən müharibəsinin gedişatına mühüm təsir göstərməsindən, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun şücaəti sayəsində qısa zamanda işğal altında olan rayonlarımızın düşmən tapdağından azad edilməsindən danışıb. Tədbir şəhər Mədəniyyət Mərkəzinin klub filialları özfəaliyyət kollektivlərinin ifasında konsert proqramı ilə davam edib.



Astara rayon Mərkəzi Kitabxanasında keçirilən tədbirdə Cəbrayıl rayonunun coğrafi mövqeyi, tarixi abidələri, faydalı qazıntıları, qiymətli xammal ehtiyatları, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri haqqında məlumat verilib. Sonda şagirdlərin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.

Əlamətdar gün münasibətilə Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Qəhrəmanlar diyarı azadlıqda" adlı dəyirmi masa təşkil edilib. Çıxış edənlər Vətən müharibəsində əldə olunan şanlı Qələbədən, Cəbrayıl şəhərinin tarixindən, Prezident İlham Əliyevin Cəbrayıla səfərlərindən söz açıb, gənclərimizə vətənpərvər olmağı, şəhidlərimizi daima xatırlamağı, qazilərimizə hörmətlə yanaşmağı tövsiyə ediblər. Sonda tədbir iştirakçıları Yardımlı şəhidlərinə həsr olunmuş sərgi ilə tanış olublar.

***

Beyləqan rayon MKS-nin təşkilatçılığı, rayon Tarix-Diyarşünaslıq Muzeyinin dəstəyi ilə keçirilən tədbir də əlamətdar tarixə həsr olunub. Bildirilib ki, Azərbaycan Ordusu Vətən müharibəsinin 8-ci günündə Cəbrayıl şəhəri ilə yanaşı, bir neçə kəndi də işğaldan azad edib. 44 gündə qazanılan şanlı Zəfər tariximizə qızıl hərflərlə yazılıb. Bildirilib ki, işğaldan azad olunduqdan sonra Cəbrayıl rayonunda aparılan genişmiqyaslı tikinti, abadlıq və quruculuq işləri hər bir Azərbaycan vətəndaşını qürurlandırır. Sonda Beyləqan şəhər 4 saylı tam orta məktəbin şagirdləri vətənpərvərlik mövzusunda aşıq havaları və şeirlər səsləndiriblər.

# Heç kim unudulmur, heç nə yaddan çıxmır...





Oğuz rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları tərəfindən Vətən müharibəsi şəhidi Məhəbbət Paşayevin ailəsi ziyarət edilib.

Məhəbbət Paşayev 1999-cu il avqustun 5-də Şəki rayonunun Bolludərə kəndində anadan olub. 2006-cı ildə ailəsi ilə birlikdə Oğuz şəhərinə köçüb.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Tərtərin Suqovuşan kəndi uğrunda döyüşlərdə iştirak edib və şəhidlik zirvəsində ucalıb. Oğuz şəhər Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

***

Gəncə-Daşkəsən RMİ, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Gəncə Regional İdarəsi və Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun (DTMQ) birgə təşkilatçılığı ilə Vətən müharibəsində şəhid olmuş Gəncə DTMQ-nin Nizami filialının bələdçisi Hikmət Məmmədovun anım günü keçirilib.

Gəncə-Daşkəsən RMİ-nin rəisi vəzifəsini icra edən Pərvin Kazımov şəhidin həyatı və döyüş yolundan söz açıb. Bildirilib ki, 1993-cü ildə Daşkəsən rayonunun Xoşbulaq kəndində doğulan Hikmət Məmmədov əmək fəaliyyətinə Nizami məqbərə kompleksində başlayıb. Vətən müharibəsi başlayanda o da torpaqlarımızın azad olunması uğrunda ölüm-dirim savaşına qatılıb. Oktyabrın 2-də Murovdağ istiqamətində döyüşlərdə şəhid olub. Gəncədəki Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Hikmət Məmmədov ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Gəncə şəhər MKS Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidi İsmayıl Mustafayevin ailəsi ilə görüş təşkil edilib. Əvvəlcə şəhidə həsr olunmuş videoçarx nümayiş olunub. Çıxış edənlər şəhidin döyüş yolundan, Vətən müharibəsi zamanı qəhrəman oğullarımızın rəşadətindən danışıblar. Sonda Gəncə şəhər 21 nömrəli tam orta məktəbin şagirdləri şəhidlərə həsr olunmuş kompozisiya ilə çıxış ediblər.

# Lerikdə şəhid qəhrəmanın xatirəsi anılıb

Lerik rayonunun Dico kəndində Vətən müharibəsi şəhidi Firdovsi Tahirovun xatirəsi yad olunub.



Əvvəlcə rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə, təşkilat və ictimaiyyət nümayəndələri şəhidin məzarını ziyarət ediblər. Daha sonra Lerikin icra başçısı Əkbər Abbasov şəhidin ailəsinin yaşadığı evə gələrək onların qayğı və problemləri ilə maraqlanıb.

Qeyd edək ki, Firdovsi Balaxan oğlu Tahirov 1997-ci il fevralın 18-də Dico kəndində anadan olub. 2020-ci ilin Vətən müharibəsində Murovdağ istiqamətindəki döyüşlərdə iştirak edib. Müharibənin ilk günündə şəhadətə yüksəlib. Doğulduğu Dico kənd qəbiristanlığında torpağa tapşırılıb.

Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Zəfər Orucoğlu**

# Füzulidə şəhidlər haqqında film təqdim olunub



Füzuli Dövlət Dram Teatrında (Horadiz şəhəri) "Vətəndaşların Sosial Rifahının Gücləndirilməsinə Dəstək" İctimai Birliyinin təşkilatçılığı və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə ərsəyə gələn "Ölümə qənşər – 2" bədii-sənədli filminin təqdimatı olub.

Bildirilib ki, film 2016-cı ilin Aprel döyüşlərində və 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda vuruşan qəhrəmanlarımızdan, igid əsgər Qamət İnşallahlı və onun arxa cəbhədə Ordumuz üçün öz maddi-mənəvi köməkliyini əsirgəməyən ailəsindən bəhs edir. Filmdə obrazları canlandıranlar isə N saylı komando birliyinin mənsubları olub.

Film Xocavənd rayonunun Hadrut qəsəbəsi və Tuğ kəndinin ərazisində lentə alınıb. Ekran əsəri tamaşaçılar tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

# Eyni gündə şəhadət şərbətini içən qardaşlar...

Əli və İslam – iki şəhid qardaş. Onların həyat yolu bir başlamasa da, bir sinifdə oxudular, eyni işdə işlədilər. Ancaq sonuncu birgəlik heç birinə bənzəmədi. Cəsur, mətin Əhmədov qardaşları 44 günlük Vətən müharibəsində eyni gündə şəhidlik zirvəsinə ucaldılar.



Əli Əhmədov 1993-cü il yanvarın 5-də, İslam Əhmədov 1994-cü il sentyabrın 19-da Mingəçevir şəhərində anadan olublar. Ataları İlqar Əhmədov avtomobil qəzasında həlak olub. Anaları Sevinc xanım təkbaşına onları böyüdüb. Hər ikisi şəhərdəki 11 nömrəli tam orta məktəbi bitiriblər.

Əli 2011-2015-ci illərdə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Maliyyə fakültəsində təhsil alıb. 2015-2016-cı illərdə Azərbaycan Ordusunun nümayəndələri kimi sülhməramlı kontingentin tərkibində Əfqanıstanda xidmət edib. 2017-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq öz istəyi ilə sərhəd bölgəsində xidmətini davam etdirib.

Kiçik çavuş Əli Əhmədov Vətən müharibəsində mərdliklə döyüşüb. Səngər yoldaşının dediyinə görə, o, bir neçə dəfə yaralansa da, hərbi hospitala aparılmağına etiraz edərək döyüşə davam edib. Əli müharibənin ilk günündə Tərtər istiqamətindəki döyüşlərdə qəhrəmancasına şəhid olub.

***

İslam uşaq yaşlarından idmana böyük maraq göstərib. Avarçəkmə, kikboksinqlə məşğul olub. Lakin Vətənə olan sevgisinə görə qardaşı kimi hərbçi peşəsini seçib. Əsgərlikdən qayıtdıqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Yevlax rayonundakı N saylı hərbi hissədə xidmətə başlayıb. O, yoldaşları arasında mehriban xasiyyəti, ürəyiaçıqlığı ilə seçilib. Bir sıra medal və sertifikatla təltif olunub.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində qardaşı Əli kimi İslam da döyüşə yollanıb. Müharibənin ilk günü Suqovuşan uğrunda döyüşdə şəhidlik zirvəsinə ucalıb.

Şəhid qardaşlar Mingəçevir şəhər Şəhidlər xiyabanında torpağa tapşırılıblar.

Sevinc Əhmədova oğulları barədə xatirələrini dilə gətirir: "Əli və İslam çox çətin uşaqlıq dövrü keçirmişdilər. Demək olar ki, onlar uşaqlıq yaşamadılar. Oğullarıma ürəkləri istədiklərini ala bilmədim. Özüm yaşıllaşdırmada süpürgəçi işləyirdim. Bundan əlavə, bağımız vardı. Bağda meyvə-tərəvəz becərib satır, uşaqları böyüdürdüm. Əli mənə çox bağlı idi. İslam isə sevgisini üzə verən deyildi".

Sevinc ana qeyd edir ki, oğullarının Vətən müharibəsində iştirakından xəbəri olmayıb: "Sentyabrın 19-u İslamın ad günü idi. Ad gününü keçirməyi çox xoşlayırdı. Həmin gün qardaşı Əli də gəldi. Söylədim ki, a bala, deyirlər müharibə olacaq, düzdümü? Əli cavab verdi ki, ay ana, nə müharibə?! Elə söhbət yoxdur. Bundan bir həftə sonra – sentyabrın 26-sı gecə saatlarında İslam evə gələrək qış paltarlarını yığıb getdi. İslam həmin gecə bütün yaxın qohumlarla bir-bir görüşüb halallıq almışdı. Həmin gün Əliyə də zəng elədim. Hər şeyin yaxşı olduğunu söylədi... Sentyabrın 27-də Əlinin şəhid xəbəri gəldi. Onu bir gün sonra dəfn elədik. Əlinin dəfnindən qayıdandan sonra isə İslamın da şəhid olduğunu dedilər...".

Oğullarının xatirələrini yaşatmaqdan ötrü Sevinc ana yaşadıqları evi muzeyə çevirib: "Bu evi oğullarım öz zəhmətləri hesabına alıblar. Onların xatirələrini yaşatmaq üçün 2021-ci ildə evi muzey eləmək qərarına gəldim. Ev-muzeydə Əli və İslama aid şəkillər, geyimlər, oğullarımın şəxsi əşyaları, o cümlədən muzeyə hədiyyə olunan əşyalar qorunub saxlanılır".

Muzeyin hazırda ictimai əsaslarla fəaliyyət göstərdiyini söyləyən Sevinc xanımın arzusu ev-muzeyin dövlət qeydiyyatına alınmasıdır: "Bu günlərdə, sentyabrın 28-də mədəniyyət naziri Adil Kərimli Mingəçevir şəhərinə səfəri zamanı ev-muzeydə də oldu. Nazirə muzey haqqında ətraflı məlumat verdim. Bilirsiniz, Əli və İslamın heç bir varisi yoxdur. Ona görə arzum odur ki, muzey dövlət qeydiyyatına alınsın. Bu istəyimi cənab nazirə də çatdırdım. Çox sağ olsun, nazir muzeyə nəzarət edilməsinə görə aidiyyəti orqanlara tapşırıqlar verdi".

Əli Əhmədov ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə", İslam Əhmədov isə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub. Bundan başqa, hər iki qardaş 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib, yaşadıqları küçəyə adları verilib.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Yaşıl həyat rəmzidir? Həmişə yox...

## “Qaratoxmaq qadın”ın qayıdışı da deyə bilərik



Əslində, bütün vəsflərdən, təsvirlərdən, metaforalardan öncə rəng fiziki hadisədir. Elmdə onun təxmini tərifi belədir: rəng bir sıra fiziki, fizioloji, psixoloji amillərdən asılı olan optik diapazonun elektromaqnit şüalanmasının subyektiv keyfiyyət xüsusiyyətidir. Yəni, çox qəliz bir anlayış. Geniş kütlə üçün isə sadalanan amillərdən biri daha doğmadır: psixoloji. Elə bu psixoloji amildir ki, çox vaxt həyat eşqi, gənclik yaşıl rənglə assosiasiya olunur. Amma…

Amma və lakin ki, qumarxana masaları da yaşıl rəngdədir. Çünki pul və zənginlik də yaşıl rənglə assosiasiya olunur.

Burada da, yəni səhnədə hər şey yaşıl rəngin hökmranlığı altındadır. Hətta səhnə rampasının arxasında sağdan-soldan yuxarı ştangetlərə bərkidilmiş yaşıl rəngli parçadan möhkəm konstruksiya salonda əyləşənlərdə yelləncək assosiasiyası yaradır. Bu duyum isə əsərin ruhuna – qumar həvəsinin məhv etdiyi əsas qəhrəmanların həyat çabalarına tam uyğun gəlir...

Söhbət Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının bu mövsümdə təqdim etdiyi yeni tamaşadan – P.İ.Çaykovskinin “Qaratoxmaq qadın” operasından gedir. Teatrın binası təmirə bağlandığından əsər oktyabrın 1-də Bakı Musiqi Akademiyasının (BMA) nəzdindəki Opera studiyasının səhnəsində oynanıldı.

Bu yerdəcə haşiyə çıxaq ki, 2019-cu ildə “Qaratoxmaq qadın” Opera studiyasında tamaşaya qoyulmuşdu. Həştərxan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru Aleksey Smirnovun quruluş verdiyi tamaşada BMA-nın müəllim və tələbələri çıxış etmişdilər. Səhnə tərtibatını Sankt-Peterburq Mariinski Teatrının rəssamı Yelena Bodrova vermişdi. Bu dəfə, adını çəkdiyimiz dəvətli sənətçilərlə yanaşı, teatrın baş dirijoru Əməkdar artist Əyyub Quliyev (tamaşanın musiqi rəhbəri və dirijoru), Əməkdar incəsənət xadimi Sevil Hacıyeva (xormeyster), Əməkdar mədəniyyət işçisi Tehran Babayev (icraçı rəssam), Xalq artisti Mədinə Əliyeva (xoreoqraf) “Qaratoxmaq qadın”ın ərsəyə gəlməsində əmək sərf ediblər.

Tamaşanın musiqi cəhətdən həlli, orkestrin, ayrı-ayrı vokalçıların dirijorla tam anlaşıqlı fəaliyyəti, həmişəki kimi xorun sığallı ifası tamaşaçılara Çaykovskinin bitkin musiqisindən tam zövq almaq fürsəti yaratdı.

“Qaratoxmaq qadın” operası “Yevgeni Onegin” və “Mazepa”dan sonra bəstəkarın A.S.Puşkinin mətninə bəstələdiyi üçüncü operadır. İlk iki əsərdən fərqli olaraq, bu operanın librettosu (müəllif bəstəkarın kiçik qardaşı, dramaturq Modest Çaykovskidir) Puşkinin eyniadlı povestindən həm süjet xəttinin inkişafı, həm də qəhrəmanların xarakteristikasına görə fərqlənir. Operada German Lizaya doğrudan da aşiqdir, Liza da qoca Qrafinyanın yoxsul qohumu yox, onun nəvəsi, yeganə zəngin varisidir. Povestdən fərqli olaraq, Liza zavallı gənc qız yox, Germana bəslədiyi məhəbbətin xətrinə cəmiyyətdəki mövqeyini qurban verməyə hazır, knyaz Yeletski ilə deyikli münasibətinə son qoymağı bacaran güclü xarakter sahibidir.



Əməkdar artist Fəridə Məmmədovanın Lizası da librettodan irəli gələn və musiqinin gücləndirdiyi hisslərin tam təcəssümü idi. O, Lizanın partiyasını oxumadı, qəlbən yaşadı; Qrafinyanın ölümünə bais olan Germana görüş təyin edərkən obrazın xarakterini açan “Ax, istomilas ya qorem” (Eh, dərd məni tamam üzdü) ariozasının ifasından sonra salonun alqışlarını qazandı.

İş belə gətirib ki, məşhur dünya operalarında nisbətən yaşlı qadın partiyaları demək olar ki, yoxdur. Bir istisna varsa, o da “Qaratoxmaq qadın” operasındakı Qrafinyadır. Metso-soprano səs üçün yazılmış bu partiyanı indiyədək nisbətən daha yaşlı çağında ifa edən görkəmli rus vokalçısı Yelena Obraztsova olub. Maraqlıdır ki, operanın uvertürası çalınarkən pərdə açıldıqdan sonra səhnənin arxa divarında qumarxana təsvirini verən videoinstalyasiyada bir anlıq Yelena Obraztsovanın Qrafinya qılafında siması görünür. Bizim tamaşada isə Qrafinya alışdığımız dəbdəbəli saç düzümündə, bər-bəzəkli kriolinlə səhnəyə çıxmır. Xalq artisti Fidan Hacıyeva tünd və daha sadə qiyafədə, onu amansızcasına qocaldan qrimlə səhnəyə çıxır.

“Ax, postıl mne etot svet” (Bu cəmiyyət məni bezdirdi) ariyasını inamla ifa edən, təsəvvürümüzdə 150 il öncəki əhvalatlardan bəhs edən kostyum dramı janrından uzaq olan bizim Qrafinyanın görkəmi ariyadakı ovqatı tamamlayır.

Polina (Əməkdar artist Səbinə Əsədova), knyaz Yeletski (Mahir Tağızadə), Surin (Xalq artisti Əkrəm Poladov), Çekalinski (Əməkdar artist Tural Ağasıyev) və qraf Tomski, Zlatoqor (Yefim Zavalnı) əsərdə, nəzərdə tutulduğu kimi, ayrıca ariya ifa etməsələr də, tamaşanın uğuru bu ifaçılarsız mümkün olmazdı. Kollektiv demişkən, teatrın xor kapellasının nizamlı, yeksəsli ifası, yığcam balet qrupunun zərif krujevanı xatırladan rəqsləri, orkestrin qüsursuz çıxışı, nəinki tamaşanı vahid süjet xəttində birləşdirdi, həm də onlarla məşğul olan xormeyster və xoreoqrafın ciddi və düşünülmüş çalışmasının nəticəsi idi.

“German mənim bu və ya digər musiqini bəstələmək səbəbim yox, əsər üzərində çalışdığım bütün müddətdə rəğbət bəslədiyim canlı insan idi. Mən “Qaratoxmaq qadın”ı məhz sevgiylə yazmışdım. Aman Tanrım, dünən yazıq Germanın vida mərasimində mən necə ağlamışdım!...”. Bu etiraf bəstəkarın 1890-cı il martın 3-də qardaşı Modestə yazdığı məktubdandır.

Qumarxanaya gedib əlinə bircə kart almadan saatlarla oyunçulara tamaşa edən, ilk baxışdan aşiq olduğu qızın adını və kim olduğunu bilmədən havalı kimi gəzən German (Əməkdar artist Fərid Əliyev) dostları ilə görüşdə sevdiyi qıza knyaz Yeletskinin elçi düşdüyünü, həmin qızın da zəngin qrafinyanın yeganə varisi olduğunu öyrənir. Qraf Tomski isə kübar cəmiyyətdə qoca Qrafinyanın cavanlıqda Parisdə uduzduğu bütün sərvətini uğur gətirən üç kartın sirrini öyrənməklə geri qaytarması barədə dolaşan lətifəni danışır. Germanın daxilində varlanmaq arzusu ilə Lizaya qovuşmaq (bəlkə də Lizaya qovuşmaq üçün varlanmaq arzusu?) istəkləri ağlasığmaz ehtirasa çevrilir.

Adətən, dram tamaşalarında belə bəzi aktyorlar özlərini əziyyətə salıb obrazı vizual tamamlayacaq ştrixlərə fikir vermirlər, baxışları, üz ifadəsini cilalamırlar. Çünki tamaşa salonundan səhnəyə baxanda belə xırdalıqlar guya görünmür. Nəzərə alaq ki, musiqili teatrda səhnəni salondan həm də orkestr çökəyi uzaqlaşdırır. Bu yerdə adamın dilinə belə bir ifadə gəlir: Siz elə bilin.

Fərid Əliyev opera səhnəsindəki ilk çıxışlarından bəri təkcə güclü dramatik tenor səsi ilə deyil, aktyorluq ifası ilə, səhnədəki sevgi, qəhrəmanlıq, faciə – fərq etməz, istənilən münasibəti kino kamerası qarşısında oynayırmış kimi dəqiq ifadə etməyi ilə seçilir. “Qaratoxmaq qadın” operası da istisna olmadı. Fərid Əliyev o axşam daxilən German ola bildi və insanın ona fəlakət gətirən ehtirasın qurbanına necə çevrildiyini qəhrəmanının timsalında göstərə bildi.

...1890-cı il dekabrın 7-də ilk dəfə Peterburqda Mariinski Teatrında oynanılmış “Qaratoxmaq qadın” operası Çaykovski yaradıcılığının zirvəsi sayılır. İllər sonra “Qaratoxmaq qadın”ın yenidən bizim teatra qayıdışı ürəkaçan əməldir. Hətta məşhur teatrların momumental tamaşaları fonunda miniatür sənət nümunəsi təəssüratı yaratsa da...

**Gülcahan Mirməmməd**

# “Hazırda sənədli animasiya üzərində işləyirəm...”

Son günlər mətbuatda tez-tez “Hədis” animasiya filmi ilə bağlı xəbərlərə rast gəlirik. Film 2022-ci il sentyabrın 21-də İranda etiraz aksiyaları zamanı təhlükəsizlik qüvvələri tərəfindən qətlə yetirilmiş azərbaycanlı qız Hədis Nəcəfiyə həsr edilib. Ekran əsəri gender, etnik və mədəni ayrı-seçkiliklə mübarizə aparanlara ithafdır.

Müsahibimiz bu cizgi filminin müəllifi, gənc rejissor Nəzrin Ağamalıyevadır.

Nəzrin 1999-cu ildə anadan olub. Azərbaycan Dövlət İqtisadiyyat Universitetində bakalavr təhsili alıb. Bir müddət dizayner kimi çalışıb. Daha sonra yaradıcı fəaliyyətini animasiya sahəsində davam etdirib. Praqadakı FAMU Universitetində animasiya kinosu üzrə təhsil alıb. Azərbaycan Animasiya Assosiasiyasının təsisçilərindən biridir. Bu il Bakıda 6-cı dəfə keçirilən “Animafilm” Beynəlxalq Animasiya Festivalının art-direktorudur.

*– İxtisasınız iqtisadiyyat olsa da, animasiya və rəssamlığa meyil etmisiniz. Sizi bu sahəyə nə istiqamətləndirdi?*

– İqtisadiyyat sahəsini seçməyim ailəm üçün də gözlənilməz olmuşdu. Nədənsə, orta məktəbin son sinfində bu qərara gəldim. Amma birinci kursda oxuyanda başa düşdüm ki, mənim sahəm deyil və incəsənətlə məşğul olmağa başladım. Uşaqlıqdan rəsmlər çəkirdim. Valideynlərim 3 yaşımdan məni rəsm kurslarına qoymuşdular.

*– Niyə məhz animasiya?*

– Məncə, bir çox rəssamların arzusudur ki, yaratdıqları sənət əsərləri canlansın. Mən də onlardan biriyəm. Hələ uşaq yaşlarımdan cizgi filmlərinin necə çəkilməsi ilə maraqlanırdım, axtarışlar edirdim. Animasiyanı da buna görə seçdim və narazı deyiləm.

*– Animator olmaq üçün kino təhsili mütləqdir?*

– Animator, animasiya rejissoru olmaq üçün kino təhsili mütləqdir. Bəlkə də ali məktəb olmadan da öyrənmək olar. Amma düşünürəm ki, insanın özünü inkişaf etdirməsi çox önəmlidir. Çünki animasiya sahəsində də ildən-ilə, hətta deyərdim ki, aydan-aya çox maraqlı texniki yeniliklər baş verir. Bu, fərq eləmir; ya ustad dərsi olsun, ya ali təhsil. Mən Praqada Kino Akademiyasında təhsilimi böyük fürsət kimi dəyərləndirirəm.

*– Dizayner, art-direktor və rejissor. Bu işləri çatdırmağa vaxt olur?*

– İşləri bölürəm. Məsələn, festival olan il dizayn işi növbədə gözləyir. Daha çox festivalla



məşğul oluram. İlin ikinci yarısında rejissor kimi layihələrimi işləyirəm. Çətindir, amma maraqlıdır.

*– Gələk “Hədis” filminə. Bu film çox uğur qazanıb. O, həyatınıza, sənət yolunuza nə gətirdi?*

– Əslində, böyük bir təcrübə gətirdi. İlk filmin bu qədər uğurlu olacağını düşünmürdüm. Amma 25-dən çox festivalda təqdim olundu. Bunlardan üçü – Annecy, Busan və “Animest” çox əhəmiyyətli festivallardır. Əgər film bunlardan birində qalib seçilsə, avtomatik olaraq, Oskar mükafatının uzun siyahısına düşə bilərsiniz. Məni ən çox sevindirən filmə baxan insanların geri dönüşləridir. Filmlə bağlı çoxsaylı müsbət fikirlər almağım mənə fərəh gətirir.

*– “Hədis”in davamı olacaqmı?*

– Filmdə sonluğu əvvəldə göstərmişik. Bu o deməkdir ki, Hədis kimi neçə-neçə qız bu savaşda həyatını itirir, amma izləri qalır. Hədis sonluqda deyir ki, bu alovdan sənə də bir od düşsün. Bu, əslində, onun bizə bir çağırışıdır. O, etnik və mədəni ayrı-seçkiliyə yox deyir.

*– Hazırda üzərində işlədiyiniz film varmı?*

– Çoxlu layihələrim var, hamısını başa çatdırmaq istəyirəm. Bilmirəm, hamısına enerjim çatacaq, ya yox, onu zaman göstərəcək. Hazırda sənədli animasiya üzərində işləyirəm. Bu, psixoloji qadın xəstəlikləri ilə bağlı filmdir.

*– Builki “Animafilm” festivalı ilə bağlı təəssüratınız necədir?*

– Altı ilin təcrübəsinə dayanaraq deyərdim ki, komanda və festival artıq tam formalaşıb. Bu, bizi çox sevindirir. Çox yaxşı və səmərəli işlər görülür. Builki festivalda xarici animatorlarla yerli mütəxəssislərin görüşü çox əhəmiyyətli oldu. Peşəkar və həvəskar animatorlar tanınmış mütəxəssislərlə görüşlərindən məmnun qaldılar. Gələcəkdə də bu kimi səmərəli fəaliyyəti davam etdirəcəyik.

**Lalə Azəri**

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (67)

### 1996-cı il 15 dekabr

Prezident Heydər Əliyev Teleteatrda “Beynəlxalq uşaq televiziyası və radiosu günü”, habelə UNİCEF-in 50 illiyi münasibətilə mərasimdə çıxış edib.

### 1996-cı il 20 dekabr

Akademik Opera və Balet Teatrında Rusiya Dövlət Akademik Orkestrinin – “Vivaldi Orkestri”nin xeyriyyə konsertinə baxıb. Konsertdən sonra orkestrin heyəti ilə görüşərək söhbət edib.

### 1996-cı il 27 dekabr

Azərbaycanın və keçmiş SSRİ-nin Xalq artisti, görkəmli müğənni Zeynəb Xanlarovanı yubileyi (60 il) münasibətilə təbrik edib. *“Siz Azərbaycan milli musiqisinin, mədəniyyətinin vətənimizdən uzaqlarda ən böyük təbliğatçılarından biri olmaqla bərabər, öz nadir istedadınızla bütün Şərq aləminin sevimli Zeynəbinə çevrilmisiniz. Azərbaycan xalq mahnıları, muğam, təsnif və müasir bəstəkarların əsərləri ilə yanaşı, siz dünya xalqları folklorunun mahir ifaçısı kimi də geniş şöhrət tapmısınız”*, – deyə təbrik məktubunda bildirilirdi.

### 1997-ci il 7 yanvar

Xalq şairi Qabilin anadan olmasının 70 illiyi münasibətilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında keçirilən gecədə iştirak edib.

*“...Mən şairlərin, yazıçıların, ədəbiyyatçıların son illərdə keçirilən yubileylərini xatırlayıram. Bu yubileylərdə hər bir sənətkarların yaradıcılığına qiymət verilir. Biz, məsələn, Qabilin əsərlərini oxumuşuq, lakin bu şeirləri bir daha yada salmaq çox əhəmiyyətlidir, həm də dinləyəndə o, insana zövq verir. Mən bu yubiley gecəsinə təkcə Qabilə hörmət naminə gəlməmişəm, buraya həm də incəsənətimizlə, ədəbiyyatımızla, şeirimizlə görüşmək üçün gəlmişəm...*

*Qabilin Nəsimi haqqında yazdığı mənzum roman mənim yaxşı xatirimdədir... Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil. Qabil bunun öhdəsindən gəldi. Mən bu gün bu yubiley gecəsinə böyük məmnuniyyət hissi ilə gəlmişəm...”.*

### 1997-ci il 19 yanvar

Qədirli adına Mərkəzi Hövzə Xəstəxanasında cərrahiyyə əməliyyatı keçirən və müalicə olunan Xalq şairi Bəxtiyar Vahabzadəyə baş çəkib.

### 1997-ci il 20 yanvar

Respublika Sarayında Ümumxalq Hüzn Gününə həsr olunmuş xatirə gecəsi başa çatdıqdan sonra ədəbi-bədii kompozisiyanın iştirakçıları olan incəsənət ustaları ilə görüşüb.

“...Bugünkü tamaşanın həm bədii dəyəri, həm də ifaçıların hər birinin keçirdiyi daxili hisslər, hadisəni dərk etməsi xatirə gecəsinə həqiqətən xüsusi əhəmiyyət verdi. Bunlar çox təsirli idi, şəxsən mənə təsir etdi... Bununla belə, nə qədər kədərli olsa da, 20 Yanvar gününü xatırlayarkən hər birimiz eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi. Azərbaycanın şairləri, yazıçıları, mədəniyyət xadimləri, incəsənət xadimləri, bəstəkarları və ifaçıları ilə də fəxr edə bilərik ki, bizim belə yüksək səviyyəli mədəniyyətimiz var, hətta bu kədərli, qəmli hadisəni də incəsənətimiz vasitəsilə nümayiş etdirə bilirik... Arzu edirəm ki, sizin yaradıcılığınız bundan sonra həmişə şadlığımıza, xalqımızın sevincinə, qələbələrinə həsr olunsun...”.

### 1997-ci il 25 yanvar

Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin albom-kataloqunun təqdimat mərasimində iştirak edib. Albom-kataloq Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (“Əsrin müqaviləsi” üzrə konsorsiumun operatoru) köməyi ilə nəşr olunub.

### 1997-ci il 31 yanvar

Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə nitq söyləyib.

### 1997-ci il 1 fevral

Azərbaycanda dövlət quruculuğu sahəsində gənclərin müstəsna rolunu və 1996-cı il 2 fevral tarixində müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunun keçirilməsini nəzərə alaraq 2 fevralın “Azərbaycan Gəncləri Günü” elan edilməsi haqqında sərəncam imzalayıb.

### 1997-ci il 2 fevral

Görkəmli balet ustası, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Leyla Vəkilovanın 70 illiyi münasibətilə keçirilən gecədə çıxış edib.

*“...Azərbaycanda baletin belə inkişaf etməsinə görə biz məhz incəsənət ustalarımıza, o cümlədən Leyla xanıma minnətdarıq. Leyla xanım dedi ki, ömrünün 53 ilini bu sənətə həsr etmişdir... İnsan peşəni elə-belə seçmir, əksər hallarda öz daxili bacarığını, arzu və istəyini nəzərə alaraq seçir... Hesab edirəm ki, səhnədə olanların hamısı hünər göstərir. Balet isə səhnə sənətinin bütün janrları arasında, əlbəttə, xüsusi yer tutur. Mən bütövlükdə incəsənət, o cümlədən də balet həvəskarı kimi bunu həmişə hiss etmişəm, başa düşmüşəm və həmişə də qeyd etmişəm. Bu gün də çox şadam kı, Azərbaycan baleti belə yaxşı səviyyədədir. Leyla xanım Sizə təşəkkür edirəm, mən Sizə öz təbrikimi göndərmişəm. Bu gün xüsusi olaraq gəldim ki, Sizi şəxsən təbrik edim. Mədəniyyət xadimlərini, görüş iştirakçılarını əmin edirəm ki, əvvəllər olduğu kimi, yenə də incəsənətə həmişə kömək edəcəyəm, müasir şəraitdə mümkün olan bütün tədbirləri görəcəyəm ki, baletimiz getdikcə yüksəlsin, opera və balet teatrımız yaşasın, var olsun, bizdə yeni-yeni balet ustaları, yeni-yeni incəsənət ustaları yaransın...”.*

**Hazırladı: V.Orxan**

***(davamı var)***

№74 (2043)
6 oktyabr 2023
www.medeniyyet.az

# Gəncədən gəlirəm, sözə bənd olub...



Gəncədən başlayan söz-sovumuz böyük Əhməd Cavadsız keçməsin. Axı çox-çox illər əvvəl məhz o, "Gəncənin meyvəsi şəkər, qənd olub. Gəncədə bir qıza gözüm bənd olub, Cavada sən baxma, mən baxım deyir!" ilə bizi də özünün yandığı eşq oduna pərvanə etmişdi...

Elə Gəncədə də az qala "sulara sən axma, mən axım", "günəşə sən çıxma, mən çıxım", "quşlara sən uçma, mən uçum" deyəcək əzəmətdədir. Onunla illər sonrası görüşüm lap həsrətin vüsalla bitməsi qədər həzin oldu. Boz damlı qırmızı evlər, hər küçəsi, hər dalanı xatirələr və tarixə şahidliklə dolu qayım-qədim şəhəri bələdçisiz gəzdim.

Əzəmətli qala qapılarından başlanan yol məni Əttarlar küçəsi, Hamamçılar məhəlləsi, Papaqçılar döngəsi, Qalayçılar dalanı... kimi fərqli-fərqli məkanlara yenidən heyran etdi. Dahi Nizaminin vətəni həmişə olduğu kimi bu gün də dünyanın hər yerindən səyahətçiləri cəlb edir.

### Qaladan baxan şəkillər...

Uzun yolu qət edib, qara-boz çölləri, şoran torpaqları, ara-sıra gözə dəyən heyva, nar bağlarını, artıq barı sovulan bostan sahələrini geridə qoyub uzaqdan günəşin oğrun şəfəqlərində ayrı bir möhtəşəm rəngə çalan Gəncənin Qala qapılarına yaxınlaşırıq.

Çinarlar yurdunun çinarboylu igidlərinin – Vətəni azad və bütöv etmək üçün canından keçən şəhidlərimizin portretlərinin, bu torpağı daha da müqəddəs edən qəhrəmanlarımızın fotolardan boylanan doğma və məsum, eyni zamanda əmin və qətiyyətli baxışlarının müşayiətində yol bizi daha da irəli aparır.

Kədər və qürurun, hüzn və əminliyin verdiyi qətiyyətlə qocaman çinarların kölgəsində, arxalandığımız igid oğulların cəsarəti boyda sevginin yağışında ürəklə "Salam, Gəncə!" deyirəm.

Budur, şəhərin qədimliyinə işarə olan möhtəşəm Qala qapıları: Arxeologiya və Etnoqrafiya Muzeyindəyik. Kompleksin inşasına 2012-ci ildə başlanılıb, 2014-cü ildə başa çatdırılıb. Tarixdən məlumdur ki, Gəncə qalasının beş qapısı olub. Yeni yaradılan bu abidə şəhərin "Məqbərə qapısı" adlanan qapılarının bərpa olunan variantıdır. Gəncə-Bakı magistral yolunun hər iki tərəfində inşa edilən, ümumi uzunluğu 50 metr, bürclərinin hündürlüyü 22 metr olan qalanın əsas hissəsi beşmərtəbəli, baş sütun hissəsi ilə birlikdə yeddimərtəbəlidir. Qarşıda 75 metr hündürlüyündə dövlət bayrağı ucaldılıb, ətrafında park salınıb. Abidə-kompleksin sağ cinahında Gəncənin gerbi yaradılıb. Uzunluğu 62 metr olan yeraltı tunel hər iki qalanı birləşdirir.

### Bəlkə tarixin özü qədər?!

Ola bilər, kiməsə görə bu bir az qabarıq təsvirdir. Amma həm də Gəncə bunun haqqını verir. Bəzi mənbələrdə şəhərin yaranma tarixi eramızdan əvvəlki dövrə, bəzilərində isə Erkən Orta əsrlər dövrünə aid edirlər. Son elmi araşdırmalar isə artıq mübahisələrə son qoyub. Məlum olub ki, Gəncənin dörd min ildən çox yaşı var. Bu əhəmiyyətli nəticəyə N.Gəncəvi adına Gəncə Tarix-Diyarşünaslıq Muzeyinin fondlarında saxlanılan, Gəncəçay vadisində tapılan sənətkarlıq məmulatı, qədim keramika nümunələri, qiymətli daşlar sayəsində gəlinib. Bu, öz yerində. Amma Gəncənin əsas tarixi ansamblı Şah Abbasın memarı və veziri Şeyx Bahəddin tərəfindən XVII əsrdə yaradılan memarlıq kompleksidir. Bu kompleksə Cümə məscidi (Şah Abbas məscidi), Çökək hamam və Şah Abbas karvansarası daxildir.

Şəhərə ayrı bir gözəllik verən məscidlər və türbələr sırasında, sözsüz ki, ilk yerdə I Şah Abbasın göstərişi ilə 1606-cı ildə inşa edilən Şah Abbas məscidinin xüsusi yeri var. Orada olarkən eşitdiyim bir fikir (nə dərəcədə real olduğunu demək çətindir) diqqətimi xüsusilə cəlb etdi. Sən demə, günorta olanda tikilinin qərb divarına düşən kölgə yox olur və bu, günorta namazının vaxtının çatdığı anlamına gələrmiş.

Heyrətimi görən yerli sakinlərdən biri özünəməxsus əminliklə "Burada təəccüblü heç nə yoxdur. Biz hələ də vaxtı o yoxa çıxan kölgəynən bilirik. Vaxtın varsa, gözlə, sən saatına bax, biz də kölgəyə. Dəqiqliyə isə söz ola bilməz" dedi. Uzun zaman burada mədrəsə də fəaliyyət göstərib və tanınmış şair, mütəfəkkir Mirzə Şəfi Vazeh xəttatlıq sənətindən dərs keçib.

Memarlıq quruluşuna görə diqqətçəkən daha bir məkan hazırda ətrafındakı müasir tikililərə də meydan oxuyacaq zəriflikdəki Çökək hamamdır. Onu da Şeyx Bahəddin elə həmin il məscidin yanında inşa etdirib. Hamamın əsas təyinatı məscidə namaz qılmağa gələn müsəlmanların dəstəmaz almasına şərait yaratmaq olub. Zirzəmisində iki buxar qazanı olan hamam odunla qızdırılıb. Sakinlərin dediyinə görə, bu hamam hətta bir şamla da isinərmiş.









4 əsr yaşı olan bu unikal sistem 1963-cü ilə qədər ideal vəziyyətdə imiş. Gəncə sakini Sara Məmmədova deyir ki, hər həftə məhz bu hamama gəlmək bizim üçün bir ayinə çevrilmişdi. Hamının evində hamam olsa da, gəncəlilər həftənin bir günü mütləq bura üz tuturdu.

Kompleksə aid üçüncü tikili Şah Abbas karvansarasıdır. Onun inşasına 1606-cı ildə Şah Abbas Səfəvinin göstərişi ilə başlayıblar. Binanın layihələndirilməsinə və tikintisinə Şeyx Bahəddin başçılıq edib. Bişmiş qırmızı kərpicdən yaradılan ikimərtəbəli bina 1613–1614-cü illərdə istifadəyə verilib. 1905-ci ildə ermənilərin Gəncədə törətdiyi qırğın zamanı bu karvansara da yandırılıb və abidə ciddi dağıntıya məruz qalıb...

### "Ona mən göz yetirib xəlvəti baxdım-baxdım..."

Məqbərəyə qalxan pilləkənləri birnəfəsə çıxdım. Məkan adama izahsız rahatlıq verir. Günəşin gözqamaşdırıcı şüaları səhər mehinə qoşulub saçlarımı dağıtdıqca "Bu hüsnü camal ilə, bu ülvi görünüşlə, Mümkünsə, bizə lütf eləyib ruyini göstər"i, o eşq dolu qəzəldən beyti deyirəm. Arxadan məni böyük şeyxin "hüzuruna" yetirən Mahirə Haqverdiyevanın yarızarafat şikayətinə, təngnəfəs olduğundan güclə eşidilən "Ay insafsız, ayaq saxla, sənə yetəmmirəm axı"sına qəhqəhə ilə cavab verirəm.

Məqbərə bələdçisi Aynurə Hüseynova deyir: "Cəmaləddin İlyas ibn Yusif Nizami Gəncəvi bu şəhərdə anadan olub, bu şəhərdə yaşayıb və bu şəhərdə vəfat edib. Nizami məqbərəsini Gəncə şəhərinin simvolu da hesab etmək olar. Şəhərin girişində, Əhmədli kəndində yerləşən məqbərənin ilk inşası XIII-XIV əsrlərə aid edilir. Ancaq hazırda Gəncənin şərqində ucalan məqbərə 1947-ci ildə inşa olunub, 1991-ci ildə isə yenilənib. Son illərdə Nizami məqbərəsi əsaslı şəkildə bərpa olunaraq 35 hektar ərazidə şəhərcik yaradılıb".

Onun sözünü yarımçıq qoyaraq turistlərin ən çox hansı sualı verdiklərini soruşuram. Gülümsəyir: "Ən çox eşitdiyim "Doğrudan, Nizami burada dəfn olunub" sualıdır...".

Bələdçimiz sonra burada yaradılan süni göl və Nizami Gəncəvinin "Xəmsə" adı ilə məşhur olan beş poemasının təcəssümü olan beş fəvvarədən bəhs edir.

Biz uzaqdan beş nazəndə gözəli xatırladan fəvvarələri qoyub məqbərə ilə üz-üzə inşa edilən muzeyə tərəf gedirik. Binanın önündəki lövhədə də qeyd olunduğu kimi, 2014-cü ildə tikilən muzey məqbərəyə bitişik ərazidə ziyarətçiləri Nizaminin həyat və yaradıcılığı ilə tanış edən yeni məkandır. Muzeydə dahi şairin həyat və yaradıcılığı, dünya şöhrətli əsərləri haqqında zəngin eksponatlar nümayiş etdirilir. Burada nəşrlər, miniatürlər, rəsm əsərləri və s. maraqlı eksponatlar qorunur.

### "İmamzadə haqqı"...

Gəncədə olduğum iki gündə ən çox bu andı eşidirdim. Xüsusən şəhərin ayrı-ayrı məhəllələrini dolaşarkən burada əttarlar, orada papaqçılar, filan yerdə filan sənətkar olub, deyib köhnə Gəncənin xiffətini edən əsl Gəncə koloritli Təranə Cəfərova mənim bəzi faktlar barədə təəccübümü "İmamzadə haqqı" ilə təsdiq edirdi. Sözsüz ki, Gəncə turumu bu məkansız təsəvvür etmədiyimdən ora da baş çəkdim.

Gəncədəki VIII əsrə aid tarix-memarlıq abidəsi – xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy imam" kimi tanınan "İmamzadə" dini-mədəniyyət kompleksi ölkəmizin dəyərli memarlıq abidələrindən hesab edilir. Bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahimin dəfn olunduğu bildirilir. Tikili geniş ərazisi, maraqlı memarlıq quruluşu ilə diqqəti cəlb edir.

### Düşmənin raket hücumlarının nişanələri

4, 5, 8, 11, 17 oktyabr 2020-ci il... Bu tarixlər zaman-zaman ağır sınaqlar görən Gəncəmizin yağı düşmən hücumuna məruz qaldığı son təqvimlərdir. Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən 5 dəfə raket hücumuna məruz qalan qədim şəhərin sakinləri böyük ziyan gördülər. Düşmənin dinc sakinləri, o cümlədən körpələri, yaşlıları hədəf almaqda məqsədi döyüş meydanındakı uğursuzluqları örtbasdır etmək və xalqımızın müqavimətini qırmaq, cəmiyyətdə qorxu hissi yaratmaq idi. Amma cəsur Cavad xanın doğma şəhəri və onun qorxmaz sakinləri bir daha öz şücaətlərini göstərdilər və xalqımız haqq yolundakı mübarizəsini şanlı Zəfərlə tamamladı.

Şəhərin bir neçə yerində dağılmış tikililər indi o günlərdən hüznlü xatirə olmaqla yanaşı, həm də yenilməzliyin rəmzi kimi qalmaqdadır...

### Bir də Xanın bağı var...

Qeyrətli Cavad xan yurdunu, zamana və özündən qat-qat güclü imperializmə qarşı meydan oxuyan bu qəhrəmanın şəhərini ayaqüstü gəzib-dolaşdıqdan sonra Xan bağında ayaq saxladım. Təkcə Azərbaycanın deyil, həm də bütün Qafqazın ən qədim bağlarından sayılan "Xan bağı" mərkəzi şəhər parkı çoxəsrlik ağacları ilə məşhurdur.

Parkın təməli 1700-cü ildə qoyulub və 1804-cü ildə şəhid olan Gəncənin son hakimi Cavad xanın şərəfinə ona "Xan bağı" adı verilib. Rusiya işğalı zamanında "Sərdar bağı" və ya "Qubernator bağı" kimi adlansa da, gəncəlilər ona "Cavad bağı" deyirlər. Mənbələrdə parkda təxminən 100 növ ağac və kol bitdiyi bildirilir.

2010-cu ildə əsaslı şəkildə yenidən qurulan bağı dolaşdıqdan sonra yol aldım son dayanacağım olan Gəncə Dövlət Kukla Teatrına. Axı səfərin əsas qayəsi o qədim tikili və içində özünə məkan tapan kuklaçılarla görüş idi...

**Həmidə Nizamiqızı**
**Bakı-Gəncə-Bakı**

## Əməkdar mədəniyyət işçisi Fərhad Babayev dünyasını dəyişib

Azərbaycan mədəniyyətinə itki üz verib. Əməkdar mədəniyyət işçisi Fərhad Babayev oktyabrın 2-də, ömrünün 76-cı ilində vəfat edib.



Fərhad Ağa Səlim oğlu Babayev 5 yanvar 1948-ci ildə Bakıda anadan olub. 1972-ci ildə Heydər Əliyev Sarayı fəaliyyətə başlayan vaxtdan burada müxtəlif vəzifələrdə çalışıb. 1989-cu ildən 2020-ci ilə qədər Heydər Əliyev Sarayının direktoru olub. Bu illər ərzində bir çox respublika miqyaslı, dövlət səviyyəli, beynəlxalq əhəmiyyətli ictimai-siyasi, mədəni-kütləvi və digər tədbirlərin, konsert proqramlarının hazırlanıb keçirilməsində yüksək peşəkarlıq, təşkilatçılıq bacarığı nümayiş etdirib.

Fərhad Babayev Azərbaycan mədəniyyətinin inkişafı və təbliğində xidmətlərinə görə ölkə başçısının müvafiq sərəncamları ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb, "Şöhrət" ordeni ilə təltif edilib.

Allah rəhmət eləsin.

## Tanınmış musiqişünas-alim Nailə Mehdiyeva vəfat edib

Azərbaycan musiqi mədəniyyətinə itki üz verib. Tanınmış musiqişünas-alim, pedaqoq Nailə Mehdiyeva vəfat edib.



Nailə Mehdiyeva 1932-ci il aprelin 21-də Bakıda anadan olub. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) musiqişünaslıq üzrə təhsil alıb. Məzun olduqdan sonra burada müəllim kimi çalışmağa başlayıb. 1968-ci ildə Sankt-Peterburq Konservatoriyasında (Rusiya) professor A.N.Dmitriyevin rəhbərliyi ilə "Qara Qarayevin kino musiqisi" mövzusunda dissertasiya müdafiə edərək sənətşünaslıq namizədi (fəlsəfə doktoru) elmi dərəcəsi alıb. 1993-cü ilə qədər Azərbaycan Dövlət Konservatoriyasının dosenti (1974) və professoru (1989) olub.

Sonra ömrünün 20 ilə yaxın bir dövrünü Ankaradakı Bilkənd Universiteti ilə bağlayıb. Orada Qərbi Avropa musiqi tarixi, opera teatrının tarixi və müasir musiqi tarixi fənlərini tədris edib. 2008-ci ildə Bilkənd simfonik orkestrinin konsert proqramları əsasında "Konsert bələdçisi" adlı kitabı çap olunub. Kitabda musiqişünas müxtəlif ölkələrdən olan 92 bəstəkarın 267 simfonik əsərinin təhlilini verib. Kitabın genişləndirilmiş ikinci nəşrində isə 116 bəstəkar haqqında məlumat və 484 simfonik əsərin şərhi öz əksini tapıb.

N.Mehdiyevanın Azərbaycan musiqişünaslığının inkişafında, bəstəkarlarımızın yaradıcılığının tədqiqində və təbliğində müstəsna xidmətləri var. O, eyni zamanda yeni musiqişünas nəslinin yetişməsində mühüm rol oynayıb. Müasir dövrün tanınmış musiqişünaslarının əksəriyyəti məhz onun tələbələri olublar.

Görkəmli musiqişünas-alim, səmimi insan Nailə Mehdiyevanın xatirəsi onu tanıyanların, yetirmələrinin qəlbində əbədi yaşayacaq.

Allah rəhmət eləsin.

## Şair-həkim: Məsihi

Orta əsrlər Azərbaycan ədəbiyyat və mədəniyyət salnaməsində çoxtərəfli yaradıcılığı ilə dərin iz qoyan mütəfəkkirlər yaşayıb. Şair, həkim, musiqiçi və xəttat kimi tanınan Məsihi də onlardan biridir.

Rüknəddin Nizaməddin Əli oğlu Məsud (Məsihi) İranın İsfahan şəhərində anadan olub. Mənbələrdə təvəllüdü 1579-1580-ci illər, vəfat tarixi 1655-1656-cı illər kimi göstərilir. Atası əslən Təbrizdən olub və dövrünün tanınmış təbibi kimi uzun illər Səfəvi sarayında çalışıb. I Şah Təhmasib paytaxtı Təbrizdən Qəzvinə, Şah Abbas isə İsfahana köçürəndə o da saray əyanları kimi bu şəhərə gəlir.

İlk təhsilini İsfahanda alan Məsihi fars və ərəb dillərini mükəmməl öyrənir. Təbabət, fəlsəfə, məntiq, nücum və ilahiyyat elmlərini dərindən mənimsəyir, həmçinin xəttatlıqla maraqlanır.

Atası övladının həkim olmasını istəyir. O da böyük səylə təbabət elmini öyrənir. Hətta "Müalicə qaydaları" adlı kitab da yazır. Lakin bütün bunlara baxmayaraq o, xalq arasında daha çox şair kimi tanınır. Erkən çağlardan poeziyaya maraq göstərən Məsihi Azərbaycan və fars dillərində şeirlər qələmə alır. Fars dilində "Danə və dam" ("Buğda və tələ"), "Zənbur və əsəl" ("Arı və bal") adlı əsərləri maraqla qarşılanır. Bədii yaradıcılıqla müntəzəm məşğul olur. Əsərlərinin tam külliyyatı yüz min beytə çatır. Təəssüf ki, onun poetik irsinin böyük bir qismi dövrümüzə gəlib çatmayıb. Ancaq bir sıra kiçik həcmli lirik əsərləri, habelə məşhur "Vərqa və Gülşa" poeması onun şair qüdrətini ortaya qoyub.

Mənbələrdə qeyd olunur ki, atası kimi Məsihi də Şah Abbasın sarayında həkim kimi çalışıb. Geniş dünyagörüşü, yüksək savadı, saray mühiti üçün vacib amil sayılan böyük poetik istedadı tezliklə Şah Abbasın diqqətini çəkir. Şah onu özünə müşavir təyin edir.



Orta əsr təzkirəçilərinin yazdığına görə, Şah Abbas vaxtaşırı elmi, ədəbi, siyasi məclislər təşkil edir. Məsihi də şahın müşaviri kimi bu tədbirlərə qatılır. Şah xətrini istədiyi bir adam kimi tez-tez Məsihinin evində qonaq olur. Lakin zaman gəlir, məlum olmayan səbəblərdən onların münasibətləri pozulur. Məsihi saraydan uzaqlaşır. Başa düşür ki, artıq onun İsfahanda yaşaması mümkün deyil. Bu səbəbdən yaxın həkim dostu Heydərlə Hindistana səfər edir. Orada müxtəlif hökmdarların, o cümlədən Böyük Moğollar sülaləsindən olan Əkbər və Cahangir şahın sarayında həkim kimi fəaliyyət göstərir.

Şah Cahangirin zamanında sarayda baş verən bir əhvalat xalq arasında geniş yayılır. Deyilənə görə, bir gün sarayda Məsihinin hansısa hərəkətinə ciddi irad tutulur. Bu, dərhal şaha çatdırılır. Buna görə də ondan sarayı tərk etmək tələb olunur. O da məcbur qalıb saraydan uzaqlaşır. Bu hadisənin üstündən heç bir il keçməmiş şah ağır xəstələnir. Saray həkimləri nə qədər çalışsalar da, şahı sağalda bilmirlər. Hökmdarın vəziyyəti günü-gündən ağırlaşır. Vəzir-vəkil çox götür-qoy etdikdən sonra məcbur qalıb həkim Məsihinin dalınca adam göndərirlər. Şahın xəstələndiyini və durumunun çox ağır olduğunu bildirirlər. Ondan üzr istəyib yenidən saraya dəvət edirlər. Məsihinin müalicəsi sayəsində şah sağalır. Əhvalatdan xəbərdar olan hökmdar Məsihini yanına çağırır və onu bağışladığını deyir. O, 20 il Hindistanda yaşayır. Sarayda görkəmli Azərbaycan şairi Saib Təbrizi ilə də tanış olur.

Şair 1632-ci ildə vətənə dönür. Ömrünün böyük hissəsini qürbətdə keçirən Məsihi deyərmiş: "Heç nədən korluq çəkməsəm də, qürbətin qərib axşamları məni sıxır və darıxdırırdı. Bəzən yel qanadlı xəyallar məni öz dünyamdan qoparar və lal-kar bir aləmə aparardı... Fikir-xəyaldan ayrılanda ah vətən, vətən deyərdim".

Vətənə qayıtdıqdan sonra o, vaxtilə Şah Abbasın şərəfinə yazmağa başladığı və yarımçıq qalmış "Vərqa və Gülşa" poemasını tamamlayır. Saraya gəlir və kitabı Şah Səfiyə təqdim edir. Kitab qəbul olunur. Ancaq onun sarayda qalıb yaşamağı məsləhət bilinmir. Kor-peşman geri dönən şair İsfahan vilayətinin Kaşan şəhərinə gedir. Ömrünün qalan hissəsini burada həkimlik fəaliyyəti ilə keçirir.

Rüknəddin Məsud Məsihi təxminən 80 yaşında Kaşan şəhərində vəfat edib. İlk "Divan"larından biri onun ölümündən sonra Saib Təbrizi tərəfindən tərtib olunub. Məsihinin şəxsi tanışlarından olan təzkirəçi Mirzə Tahir Nəsrabadi yazır ki, Saibin evində onun 10 "Divan"ı varmış.

Görkəmli ədəbiyyatşünas-alim, professor Əliyar Səfərli (1937-2017) 1966-cı ildə "Məsihi və onun "Vərqa və Gülşa" poeması" mövzusunda namizədlik (fəlsəfə doktoru) dissertasiyası müdafiə edib. Alim tərəfindən şairin İsfahan şəhərindəki "Fərhəng" kitabxanasında saxlanılan şeir divanı aşkar olunub. Əsər 1998-ci ildə Tehranda ərəb qrafikalı Azərbaycan əlifbası ilə işıq üzü görüb. Ə.Səfərli Məsihi "Divan"ındakı qəzəl, rübai və məsnəviləri geniş təhlil edib.

**S.Fərəcov**

# “Atam musiqi bəstələdiyimi biləndə sevinci yerə-göyə sığmadı...”

*Haydı irəli, əsgər, gözləyir səni səngər,*
*Cəsarətlə sən vuruş, düşmənə hünər göstər!...*

Suraxanı rayonu Yeni Günəşli qəsəbəsindəki 36 nömrəli Uşaq musiqi məktəbinin dar dəhlizinin başındakı sinif otağından xorun ifasında səslənən bu marşın nə musiqisi tanış gəlir, nə də sözləri. Bircə şanlı Azərbaycan əsgərini tərənnüm edən, onu yeni zəfərlərə səsləyən ifadələr bəllidir...

10-15 dəqiqə də səbir edib dərsin başa çatmasını gözləyirəm. Belə bir təntənəli musiqini efir-ekrandan dinləmədiyimə görə onun bəstəkarının və mətn müəllifinin kimliyini öyrənmək istəyirəm.

Budur, dərs bitir. Sinifdən 10-12 uşaq bir-birini itələyə-itələyə dəhlizə doluşurlar. Müəllimin çıxmadığını görüb sinfə daxil olmağa qərar verirəm. Qapını astaca döyürəm. İçəridən zərif bir səs “buyurun” deyir, keçirəm. Simasından nur yağan müəllimə xor qrupunda bizim uşaqların da yer aldığını bildirirəm.

Bir anlıq müəllimlə üz-üzə dayandığım sinif otağının sahəsini və bir qədər öncə buradan çıxan şagirdlərin təxmini sayını təsəvvürə gətirir, uşaqların buraya necə sığdıqları barədə düşünürəm. Məqsədim maddi-texniki imkanları çox məhdud olsa da, müxtəlif musiqi alətlərinin, xanəndəlik sənətinin peşəkarlar tərəfindən tədris olunduğu bu təhsil ocağını təftiş etmək deyil. Çünki binaya daxil olan hər kəs onun dövrün çağırışlarına cavab vermədiyi, xüsusilə pianoların istismar müddətini çoxdan başa vurduğu qənaətinə gələ bilər...

Müəllim özünü təqdim edir: Leyla Şirməmmədova – xor dirijoru. Bir qədər əvvəl şagirdlərin oxuduğu marşı xəbər alıram. Musiqisini özü bəstələdiyini, sözlərinin isə mərhum həyat yoldaşına məxsus olduğunu deyir. Onu daha yaxından tanımağa qərar verir, qəzetimiz üçün yazı hazırlamaq istəyimi bildirirəm. Yanaqları allanır, baxışları yerə dikilir... Dərsdən sonra həmsöhbət oluruq.

***

Leyla Balaqardaş qızı Şirməmmədova 1962-ci il sentyabrın 1-də Bakı şəhərində doğulub. Atası metallurgiya üzrə mühəndis olsa da, musiqiyə, sənətə qiymət verən olub. Qızının kiçik yaşlarından musiqiyə maraq göstərməsinə sevinib, onun bu sahədə təhsil almasına şərait yaradıb.

Leyla Şirməmmədova 1970-ci ildə 1 nömrəli Uşaq musiqi məktəbinin fortepiano sinfinə daxil olur. Musiqiyə böyük həvəsi uğurlarını da bərabərində gətirir. İkinci sinifdə oxuyandan musiqilər yazır: “Kiçik həcmli musiqi əsərləri yazmağa başladım. Atam musiqi bəstələdiyimi biləndə sevinci yerə-göyə sığmadı. Musiqi notlarını bilməsə də, hərdən stulu çəkib mənimlə pianonun arxasında əyləşir, ifamı alqışlayır, haqqımda anama təriflər deyirdi”.

Bildirir ki, musiqi sahəsini seçməsində əmisi qızı, Bakı Xoreoqrafiya Akademiyasının konsertmeysteri, tanınmış pianoçu, pedaqoq Sevda Axundovanın xüsusi rolu olub.



Bundan əlavə, deyir dahi bəstəkarlar Qara Qarayev və Arif Məlikovun yaradıcılığı məni daha çox sehrləyib: “Onların əsərlərini efir-ekrandan dinlədikcə qəribə hisslər yaşayır, elə bil ki, qarşımda əsrarəngiz, adlandıra bilmədiyim bir mənzərə yaranırdı. Sonradan agah oldu ki, dinlədiyim həmin musiqilər mənə həm də bəstəkarlığın yolunu açırmış...”.

Uşaq musiqi məktəbində oxuduğu illərdən fortepiano üçün valslar, marşlar, skripka üçün kiçik həcmli əsərlər yazır. Məktəbi yüksək göstəricilərlə başa vurur. 1978-ci ildən təhsilini Bakı Məktəbəqədər Pedaqoji Məktəbinin Musiqi şöbəsində davam etdirir. Bu təhsil ocağını da fərqlənmə diplomu ilə bitirir.

Ancaq Leyla xanım ali təhsil, konservatoriya eşqi ilə yaşayırdı. Ömrünü həsr etmək istədiyi musiqi sahəsinin professionallarından olmağı qarşısına məqsəd qoymuşdu: “1982-ci ildə arzuma çatdım. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Xor dirijorluğu fakültəsinə qəbul olundum. Sevincimin həddi-hüdudu yox idi. Qismətimdə xor dirijorluğunun ən tanınmış simalarından Əməkdar incəsənət xadimi, professor Eduard Novruzovun sinfində oxumaq varmış. Rəhmətlik Eduard müəllim həm çox tələbkar idi, həm də həvəslə, ürəklə dərs keçirdi. O, Azərbaycan Dövlət Xor Kapellasının əsasını qoymuşdu. Təsəvvür edin ki, televiziyada, möhtəşəm səhnələrdə böyük xor heyətini idarə edən, siması az-az görünən bir musiqi xadimi sənə dərs deyir. Elə bir müəllimin sinfində oxumaqdan tək mən yox, bütün tələbə yoldaşlarım xoşbəxt idi. Mən ondan xor sənətinin sirlərini çox həvəslə, sevgiylə öyrəndim. Bu gün də tədris prosesində, konsertlərdə ustad müəllimimi sayğıyla, rəhmətlə yada salıram”.

Leyla Şirməmmədova konservatoriya təhsilini başa vurandan sonra Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq incəsənət məktəbində pedaqoji fəaliyyətə başlayır, musiqi nəzəriyyəsi fənnini tədris edir: “Gənc, enerjili və öyrənməyə meyilli olduğum kimi, öyrətməyə də həvəsli idim. Elə istəyirdim ki, bildiyim nə varsa, şagirdlərimə verim. Halbuki musiqi nəzəriyyəsi fənni bir qədər çətindir və şagirdlər onu rahatlıqla qavraya bilmirlər. Ancaq mən ilk vaxtlardan şagirdlərimlə dil tapdım, onların sevgisini qazandım. Bilirsiniz, uşaqlar, xüsusilə də incəsənət sahəsini seçənlərin uğurları həm də müəllimlərinə olan münasibətə bağlıdır. Yəni müəllimdən müsbət enerji almayan, onun sevgisini hiss etməyən şagird, tələbə seçdiyi ixtisasa rahatlıqla yiyələnə bilmir. Təbii ki, uğur qazanmağı da çətin olur. Mən də pedaqoji fəaliyyətim dövründə çalışmışam ki, uşaqlarda ruh yüksəkliyi yaradım, ixtisaslarını sevdirim. 1996-cı ildən işlədiyim 36 nömrəli Musiqi məktəbində də fəaliyyətimi bu istiqamətdə qurmuşam. Hesab edirəm ki, müəyyən qədər buna nail ola bilmişəm”.

***



Həmsöhbətim həyat yoldaşı mərhum Daşqın Şirməmmədovun onun yaradıcılıq uğurlarında rol oynadığını deyir: “Daşqın tarixçi olsa da, musiqiyə, ədəbiyyata da yaxın idi. Yüksək musiqi duyumu vardı. Ara-sıra şeirlər yazırdı. Tarixi mövzulara daha çox müraciət edirdi. Əvvəldə adını çəkdiyiniz “Azərbaycan əsgəri” marşının sözləri də yoldaşıma məxsusdur. Onun Ulu öndər Heydər Əliyevin xalqımız qarşısında tarixi xidmətlərini tərənnüm edən, “Sən xalqı xilas etdin böyük bəladan, Bu qüdrətlə tanımışdır dünya səni” misraları ilə başlayan şeirinə də musiqi bəstələmişəm. Yaradıcılıq tandemimiz yaxşı alınırdı. Həm də bəstələrimin ilk dinləyicisi idi...”.

Leyla xanımın xor və solo ifa üçün “Azərbaycan” adlı mahnıları, bundan əlavə, “Müəllim”, “Bakı”, “Mənim Leylam” və s. bəstələri var. O, 44 günlük Vətən müharibəsində şanlı Qələbəmizdən sonra, xüsusilə də bu günlərdə Qarabağda suverenliyimizin bərpasından böyük ruh yüksəkliyi yaşadığını, zəfər soraqlı əsərlər yazmaq istədiyini deyir. Hələlik son bəstələdiyi əsər isə “Polad əsgər” marşıdır. Bildirir ki, şəhid generalımız Polad Həşimovun qəhrəmanlığı gerçək hərbi vətənpərvərlik nümunəsidir: “Şagirdimin valideyni Əminə Şammədovanın sözlərinə bəstələdiyim marşı hazırda xor qrupu ilə məşq edirik. Sağlıq olsun, 8 Noyabr – Zəfər Gününə həsr olunan konsertdə səsləndiriləcək”.

**Fariz Yunisli**

## Xatirə təqvimi 7–10 oktyabr

### Azərbaycan

**7 oktyabr 1921** – Əməkdar mədəniyyət işçisi, kino təşkilatçısı Gita Aleksandrovna Bessantina (1921-2000) anadan olub.

**7 oktyabr 2021** – Əməkdar rəssam, heykəltaraş Namiq Əbdülxaliq oğlu Dadaşov (27.11.1945 – 2021) vəfat edib. Üzeyir Hacıbəyli və Bülbülün Şuşa şəhərindəki büstlərinin, Bakıda Fikrət Əmirovun heykəlinin müəllifidir.

**8 oktyabr 1951** – Əməkdar artist, müğənni Baloğlan Xanoğlan oğlu Əşrəfov (1951 – 26.4.2021) Masallı rayonunun Bədəlan kəndində anadan olub.

**8 oktyabr 1975** – Əməkdar artist Rəşid Səməndər oğlu Rzayev (1975 – 20.11.2020) anadan olub. Akademik Milli Dram Teatrında, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**8 oktyabr 2009** – Tanınmış yazıçı, şərqşünas Əlibala Qüdrət oğlu Hacızadə (28.8.1935 – 2009) vəfat edib. “İtkin gəlin”, “Əfsanəsiz illər”, “Təyyarə kölgəsi” və s. romanların müəllifidir.

**8 oktyabr 2010** – Xalq artisti, tanınmış vokal ifaçısı Elxan Yəhya oğlu Əhədzadə (30.1.1948 – 2010) vəfat edib. Akademik Musiqili Teatrda, Dövlət Mahnı Teatrında çalışıb.

**8 oktyabr 2021** – Xalq artisti, professor Ağakişi Şəmməd oğlu Kazımov (28.6.1935 – 2021) vəfat edib. Musiqili Komediya, Opera və Balet, Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında rejissor işləyib. Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. “Yük” filmində (H.Z.Tağıyev) çəkilib.

**9 oktyabr 1980** – Fəlsəfə elmləri doktoru, professor Şükufə Şamil qızı Mirzəyeva (20.12.1925 –1980) vəfat edib. Estetika tarixi və nəzəriyyəsinə dair tədqiqatların müəllifidir.

**9 oktyabr 1989** – Tanınmış yazıçı, şair İsmayıl Abuzər oğlu Qarayev (5.12.1927 – 1989) vəfat edib.

**9 oktyabr 2022** – Əməkdar incəsənət xadimi, bəstəkar Ruhəngiz Nağı qızı Qasımova (12.7.1940 – 2022) vəfat edib.

**10 oktyabr 1907** – Şair, ədəbiyyatşünas Hümmət Əli oğlu Əlizadə (1907-1941) anadan olub.

**10 oktyabr 1911** – Tanınmış ədəbiyyatşünas alim, tərcüməçi, mətnşünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Abbas Fəttah oğlu Zamanov (1911 – 1.4.1993) Naxçıvanın Şərur rayonunda anadan olub.

**10 oktyabr 1912** – Əməkdar artist Rza Abbas oğlu Nadirov (1912–1995) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrının aktyoru olub.

**10 oktyabr 1935** – Əməkdar incəsənət xadimi, şair Həmid Abbas (Həmid Məmmədəli oğlu Abbasov; 1935 – 19.11.1999) anadan olub. Bir çox şeirlərinə mahnılar bəstələnib.

**10 oktyabr 1935** – Şair, dramaturq Şəkər Aslan (Şəkər Mirzə oğlu Aslanov; 1935 - 13.7.1995) Lənkəran rayonunda anadan olub.

**10 oktyabr 1939** – Görkəmli şərqşünas alim, filologiya elmləri doktoru elmi dərəcəsi almış ilk azərbaycanlı qadın-ərəbşünas, professor Aida Nəsir qızı İmanquliyeva (1939 – 19.9.1992) Bakıda doğulub. Yeni dövr ərəb ədəbiyyatına dair tədqiqatların müəllifidir. Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru (1991-1992) olub.

**10 oktyabr 1976** – Ustad xanəndə, Qarabağ muğam ifaçılığı ənənələrinin davamçısı Ağabala Məmmədbağır oğlu Abdullayev (1910–1976) vəfat edib. Füzuli rayonunda yaşayıb, bir çox xanəndələrin müəllimi olub.

**10 oktyabr 2015** – Xalq artisti Nuriyyə Əliağa qızı Əhmədova (26.12.1950 – 2015) vəfat edib. Musiqili Komediya Teatrında çalışıb, filmlərdə çəkilib.

### Dünya

**7 oktyabr 1915** – Rus şairi Marqarita Aliger (1915-1992) anadan olub. Poemaları: “İgidlərin xatirəsinə”, “Zoya” və s.

**8 oktyabr 1848** – Flamand əsilli fransız musiqiçisi, “İnternasional” himninin bəstəkarı Pyer Degeyter (Pierre Degeyter; 1848-1932) anadan olub.

**8 oktyabr 1892** – Rus şairi, yazıçı Marina Svetayeva (1892 – 31.8.1941) anadan olub. Əsərləri: “Qırmızı at üstündə” (poema), “Mənim Puşkinim”, “Əsir ruh” (nəsr) və s.

**9 oktyabr 1835** – Fransız bəstəkarı Şarl Kamil Sen-Sans (Charles Camille Saint-Saens; 1835-1921) anadan olub. Operaları: “Sarı şahzadə”, “Samson və Dalila”, “Gümüş zınqırov” və s.

**9 oktyabr 1862** – Türkiyə yazıçısı Fatma Aliyə Topuz (1862-1936) İstanbulda doğulub. Türk ədəbiyyatının ilk qadın romançısı kimi tanınıb. Əsərləri: “Refet”, “Cövdət paşa və zamanı” və s.

**9 oktyabr 1926** – Rus aktyoru, SSRİ Xalq artisti Yevgeni Evstiqneyev (1926-1992) anadan olub. Filmləri: “Avtomobildən qorun”, “Baharın on yeddi anı”, “İtalyanların Rusiyada ağlasığmaz macəraları”.

**9 oktyabr 1940** – İngilis musiqiçisi, “The Beatles” qrupunun yaradıcılarından biri Con Lennon (John Lennon; 1940 – 8.12.1980) anadan olub.

**10 oktyabr 1813** – İtalyan bəstəkarı Cüzeppe Verdi (Giuseppe Fortunino Francesco Verdi; 1813 – 27.01.1901) anadan olub. “Riqoletto”, “Traviata”, “Aida” operaları dünya musiqi xəzinəsinə daxildir.

**10 oktyabr 1892** – Serb-xorvat yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1961) laureatı İvo Andriç (1892-1975) anadan olub. Romanları: “Drin üzərində körpü”, “Travnisk xronikası” və s.

**10 oktyabr 1913** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1985) laureatı Klod Simon (Claude Simon; 1913-2005) anadan olub. Əsərləri: “Farsal döyüşü”, “Flandriya yolları”, “Qadınlar”.

**10 oktyabr 1930** – İngilis dramaturqu, ssenarist, şair, ədəbiyyat üzrə Nobel mükafatı (2005) laureatı Harold Pinter (1930-2008) anadan olub. Pyesləri: “Məşuq”, “Evə qayıdış”, “İtirilmiş zamanın axtarışında”.

**Hazırladı: V.Orxan**

# “Əlaqələrimizi mədəni mübadilə və turizm vasitəsilə də gücəndirə bilərik”

Azərbaycan Respublikası və Tailand Krallığı arasında diplomatik münasibətlər 1992-ci ilin 7 iyul tarixində qurulub. Azərbaycanın Tailanddakı Səfirliyi iqamətgahı Malayziyanın paytaxtı Kuala Lumpur şəhərində olmaqla 2017-ci ildən fəaliyyət göstərir. Tailandın Ankarada iqamət edən fövqəladə və səlahiyyətli səfiri Apirat Suqondhabhiromun ilə söhbətimizdə iki ölkə arasında münasibətlərə və bu münasibətlərin gələcək perspektivlərinə toxunduq.

*– Cənab səfir, ötən ilin avqustunda Tailand Krallığının ölkəmizdə yeni təyin olunmuş səfiri kimi etimadnamənizi Azərbaycan Prezidenti İlham Əliyev qəbul etdi. Ölkəmiz və onun insanları haqqında təəssüratınız necədir?*

– Vəzifəmin icrasına başlayandan bəri Azərbaycanda üç dəfə olmuşam. Keçən il etimadnaməmi təqdim etmək üçün Bakıya getdim. Bakıya ikinci səfərim bu ilin iyulunda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər səviyyəsində keçirilən iclasında Tailand nümayəndə heyətinin rəhbəri kimi oldu. Səfər etdiyim ikinci şəhər Naxçıvandır. Ötən ilin mayında Ankaradan və Bakıdan diplomatik korpusdan olan həmkarlarımla birlikdə Azərbaycanın keçmiş Prezidenti Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə ona ehtiramımızı bildirmək üçün bu səfərdə iştirak etdim. Azərbaycan və azərbaycanlılar əfsanəvi qonaqpərvərliyi ilə mənə xoş təsir bağışlayıb. Xalqınız mehriban, mərhəmətli və yardımsevərdir. Ölkənin coğrafiyası, təbii sərvətləri, xüsusilə də neft və təbii qaz bolluğu enerji sektorunda Azərbaycanı potensial tərəfdaşlarımızdan birinə çevirir.

*– Azərbaycanla hansı sahələrdə əməkdaşlığın genişləndirilməsini məqbul hesab edirsiniz?*

– Ötən il Tailand və Azərbaycan ikitərəfli münasibətlərimizin 30 illik yubileyini qeyd etdik. Dostluq əlaqələrimizin 30 illiyi hər iki ölkə üçün mübadilə və əməkdaşlıqlarımızı araşdırmağa imkan verir. Münasibətlərimizi siyasi baxımdan dəyərləndirdikdə, hesab edirəm ki, bu sahədə yaxşı çalışmışıq. Bunu səfər mübadiləsindən, Tailandın Bakıda fəxri konsulunun təyin edilməsindən və bir çox sazişlərin imzalanmasından da görmək olar. Fikrimcə, əməkdaşlığımızı gücləndirmək üçün prioritetlər daha çox biznesə, akademik sektorlara və son vaxtlar müsbət inkişaf potensialı nümayiş etdirən insanlararası münasibətlərə yönəldilməlidir.

Ötən ilin iyulunda etimadnaməmin təqdimatı zamanı Prezident İlham Əliyev ilə söhbətimizdə də qeyd etdik ki, kənd təsərrüfatı, qida sənayesi, yaşıl enerji sahələrində əməkdaşlıq bizim prioritetimiz olmalıdır. Hazırda aparıcı enerji şirkətlərimiz, Tailandın dövlət orqanları və Azərbaycanın SOCAR şirkəti bir-biri ilə əməkdaşlıq edirlər. Biz Azərbaycanla digər sahələrdə də sıx əməkdaşlıq etməyi səbirsizliklə gözləyirik.

Ölkəmiz kənd təsərrüfatı məhsulları və qida emalı sənayesində böyük təcrübəyə malikdir. Tailand Xarici İşlər Nazirliyi yanında Tailand Beynəlxalq



Əməkdaşlıq Agentliyi (TİCA) vasitəsilə artıq bir çox azərbaycanlı ölkəmizdə qida təhlükəsizliyi üzrə kurslarda təhsil almaq üçün təqaüd haqqı qazanıb. Tailand qida təhlükəsizliyi təcrübəsinə malik olduğu sahələrdə insan resurslarının artırılması istiqamətində Azərbaycana dəstəyini davam etdirməyi nəzərdə tutur ki, bu da ona bir nümunədir. Odur ki, Tailand dayanıqlı kənd təsərrüfatı, ərzaq istehsalı və təmiz enerji kimi sahələrdə Azərbaycanın dövlət qurumları və korporasiyaları ilə geniş əməkdaşlıq edə bilər.

*– Xalqlarımız arasında əlaqələrin qurulması istiqamətində hansı fəaliyyətləriniz var? Tailandda nə qədər azərbaycanlı yaşayır?*

– İnanıram ki, xalqlarımız arasında əlaqələr mədəni, akademik, təhsil mübadiləsi, turizm və həmçinin mənəvi-mədəni əlaqələr vasitəsilə gücləndirilə bilər. Üstəlik, filmlər, seriallar və ya müxtəlif əyləncə növləri vasitəsilə münasibətlərimizin inkişafı mümkündür. Hazırda tay əyləncələrinə axın geniş xarakter alır. Düşünürəm ki, bu, azərbaycanlılara tayların mədəniyyətlərini daha yaxşı anlamağa və insanlar arasında münasibətləri yaxınlaşdırmağa kömək edə bilər. İqamətgahı Kuala-Lumpurda (Malayziya) yerləşən Azərbaycanın Tailand səfirliyinin məlumatına əsasən, ölkəmizdə 30-dək azərbaycanlı yaşayır.

*– Azərbaycanla turizm sahəsində əlaqələri necə qiymətləndirirsiniz?*

– Tailand sərfəli səyahət büdcələri daxilində xarici turistlərə müxtəlif tropik turistik yerlər, maraqlı mədəniyyət, qədim tarix, ticarət təcrübəsi, o cümlədən gözəl çimərliklər, dünya şöhrətli yerli mətbəx və əyləncəli həyat təklif edir. Ölkəmiz soyuq qışdan uzaqlaşmaq üçün əla yerdir. Və ya əksinə, Azərbaycan tailandlı turistlər üçün çoxlu potensiala malik yeni və ekzotik alternativ məkandır. Bununla belə, etiraf etməliyəm ki, hazırda hələ də problemlər var. Hələlik tailandlılardan ölkənizə daxil olmaq üçün Azərbaycan vizası, azərbaycanlı turistlərin də ölkəmizə gəlməsi üçün Tailand vizası tələb olunur. Bakıda nə Tailand səfirliyi var, nə də Banqkokda Azərbaycan səfirliyi. Amma azərbaycanlı turistlərin Tailanda səyahət etmə potensialı artdığı üçün Tailandın müvafiq orqanları indi azərbaycanlı səyahətçilərin Ankara üzərindən deyil, Tailanda çatdıqdan sonra sərhəddə qapı vizası (VoA) ilə müraciət etmək hüququna malik olmalarına icazə vermək imkanını nəzərdən keçirir. Həmçinin elektron viza sistemi hazırlanır ki, bu sistem işə salındıqdan sonra azərbaycanlı səyahətçilər üçün Tailand vizasını almaq daha asan olacaq. Ümid edirəm ki, bu proseslə aramızda turizm əlaqələri daha da güclənəcək. Yaxın bir il ərzində bu variantların həyata keçirilməsi mümkün ola bilər.

*– İki ölkə arasında birbaşa uçuşların açılması gözlənilirmi?*

– Hazırda iki ölkə arasında birbaşa aviareys yoxdur. Əldə etdiyimiz məlumata görə, hər iki ölkədən turistlər digərinə “Qatar Airways” və ya Türk Hava Yolları ilə səyahət edə bilirlər.

*– Tailand Azərbaycanda səfirlik aça bilərmi?*

– Tailandın Bakıda səfirliyinin açılması müsbət qiymətləndirilib, lakin etiraf etmək lazımdır ki, büdcə və kadr ehtiyaclarını nəzərə alsaq, bu hələ bir qədər vaxt aparacaq. Ankaradakı səfirliyimiz azərbaycanlı dost və tərəfdaşlarımızla sıx və mehriban əməkdaşlıq edir. Tailandın Bakıdakı fəxri konsulu Suat Fətəliyev ölkələrimiz arasında dostluğun təbliğində öz vəzifəsini layiqincə icra edir. Yeri gəlmişkən, Azərbaycana səfərim zamanı Bakıda Heydər Əliyev Mərkəzində oldum. Çox xoşuma gəldi. Bakıdan Azərbaycanın rəmzi olan dəyərli hədiyyələr aldım. “Yanardağ” haqqında eşitdim, amma hələ gedə bilməmişəm. Bir də arzum Azərbaycanın Qarabağ bölgəsinə getmək, o yerləri öz gözlərimlə görməkdir.

**Mehparə Sultanova**
**Ankara**

# Polşada Azərbaycan musiqisi gecəsi

Xəbər verdiyimiz kimi, ölkəmiz Polşanın Bıdqoşç (Bydgoszcz) şəhərində keçirilən musiqi festivalında təmsil olunub. Festival çərçivəsində ölkəmizin Polşadakı səfirliyinin təşəbbüsü və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan musiqisi gecəsi təşkil edilib.

Gecənin açılışında Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova və konsertin təşkil olunduğu Pomeraniya Filarmoniyası direktorunun müavini Tsezari Nelkovski çıxış ediblər.

N.Qurbanova cari ilin Azərbaycan mədəniyyəti üçün bir sıra yubileylərlə əlamətdar olduğunu, o cümlədən Azərbaycan peşəkar milli teatrının yaranmasının 150, Azərbaycanda kinematoqrafiyanın 125, müsəlman dünyasında ilk opera olan "Leyli və Məcnun" operasının 115 illiyinin qeyd edildiyini diqqətə çatdırıb. Diplomat Azərbaycanın musiqi məbədi olan Şuşa şəhəri barədə də tamaşaçılara məlumat verib. Qeyd edib ki, Azərbaycanın bir çox tanınmış musiqiçiləri – xanəndələr, instrumental ifaçılar, bəstəkarlar "Şərqin konservatoriyası" hesab olunan və 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olan Şuşa şəhərindəndir. Şuşa həm də müsəlman Şərqində ilk operanın müəllifi olan Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin vətənidir.




N.Qurbanova Bıdqoşç musiqi festivalı tarixində ilk dəfə azərbaycanlı musiqiçilərin iştirakını böyük məmnuniyyət hissi ilə qeyd edib, proqramda səsləndiriləcək muğamlar, milli muğam məktəbləri barədə məlumat verib. Azərbaycan muğam sənətinin UNESCO-nun müvafiq siyahısına daxil edildiyini deyib.

Pomeraniya Filarmoniyasının direktorunun müavini T.Nelkovski 1 oktyabr – Beynəlxalq Musiqi Günündə Azərbaycan musiqi gecəsinin təşkilindən məmnunluğunu bildirib. O, ölkələrimiz arasında tarixən mövcud olmuş mədəni əlaqələrə diqqəti çəkən T.Nelkovski Azərbaycanda memarlığın inkişafına polyak memarların töhfəsindən bəhs edib.

Sonra gənc ifaçılar xanəndələr Nisbət Sədrayeva və Hüseyn Məlikov tanınmış musiqiçilər Rövşən Qurbanov, Toğrul Əsədullayev, Vüsal Bayramov və Rafael İsgəndərovun müşayiəti ilə muğamlarımızdan nümunələr, xalq mahnıları və görkəmli bəstəkarlarımızın əsərlərindən parçalar ifa ediblər.

Konsert polşalı musiqisevərlər tərəfindən böyük maraq və rəğbətlə qarşılanıb. Tədbir yerli televiziya tərəfindən işıqlandırılıb.

Altı yüzdən artıq tamaşaçının iştirak etdiyi konsert proqramının sonunda qonaqlara Azərbaycan mətbəxindən təamlar təqdim olunub.

Qeyd edək ki, Bıdqoşç şəhərində 1963-cü ildən etibarən təşkil olunan musiqi festivalına Pomeraniya Filarmoniyası ev sahibliyi edir. Polşanın mədəni həyatında mühüm hadisə hesab olunan festival bu il 15 sentyabr – 6 oktyabr tarixlərində keçirilir.

# Yaponiyada Qara Qarayevin not kitabları çap olunub

Azərbaycanın dahi bəstəkarı Qara Qarayevin əsərlərindən ibarət daha bir not kitabı Yaponiyada nəşr olunub.




2022-ci ildə icrasına başlanılan layihə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Yaponiyada yaşayan azərbaycanlı musiqiçi Gülnarə Səfərova tərəfindən həyata keçirilir. O bildirib ki, bu günlərdə bəstəkarın "Yeddi gözəl" və "Don Kixot" baletlərinin partiturasının daxil edildiyi iki not kitabı yapon musiqisevərlərinə təqdim edilib.

Kitabların dizaynı, notların redaktəsi və bunlarla bağlı maddi məsələləri "ZenOn" Yapon Musiqi Nəşriyyatı öz üzərinə götürüb. Kitabın üz qabığında bəstəkarın və əsərlərinin adı yapon və ingilis dilləri ilə yanaşı, Azərbaycan dilində də qeyd olunub. Kitaba ön sözü bəstəkarın oğlu Fərəc Qarayev yazıb.

Gülnarə Səfərovanın sözlərinə görə, layihənin davam etdirilməsi və Qara Qarayevin digər əsərlərinin də çap olunması planlaşdırılır.

# 80 yaşın şərəfinə konsert

Oktyabrın 10-da P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının Simfonik orkestri bu tədris ocağının professoru Fərəc Qarayevin 80 illik yubileyi şərəfinə konsert proqramı təqdim edəcək. Konservatoriyanın Böyük salonunda keçiriləcək konserti dirijor Anatoli Levinin idarə edəcək.




Konservatoriyanın saytında yer alan məlumata görə, proqramda Motsartın, Baxın, həmçinin yubilyarın əsərləri səslənəcək.

Bəstəkar Fərəc Qarayev 2023-cü ildə 80 yaşını qeyd edir. Mətbuat üçün məlumatda bəstəkarın yaradıcılığı barədə deyilir: "İstənilən ortodoksallığı qəbul etməyən, quru stereotiplərin çərçivəsinə sığmayan, həm yaradıcılığında, həm də həyatında "mərkəzləşmə"dən qaçan Fərəc Qarayev indiki zəmanə üçün nadir istedadın – müəllif üslubunu və mövqeyini formalaşdıran özünəməxsus görmək və çatdırmaq kimi qabiliyyətin xoşbəxt sahibidir. Fərəc Qarayevin musiqi aləmi intellektuallığı və poetikliyi ilə seçilir. Müasirliyin bədii panoramında onun müəllif səsi, onun intonasiyası kimi fərqli və tanınandır".

Konsertdə Fərəc Qarayevin "Fortepiano ilə orkestr üçün konsert"i (solist Yakov Kasnelson) və simfonik orkestr üçün postlüdiya – "Elitist (Moz)art" pyesi səslənəcək.

**Gülcahan**

# Türk Abidə Menecerləri Şəbəkəsi yaradılır

Ötən il Özbəkistanın Səmərqənd şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) IX Zirvə görüşü zamanı təşkilat nəzdində Türk Abidə Menecerləri Şəbəkəsinin yaradılmasına dair qərar verilib və bu, sammitin yekun bəyannaməsinə daxil edilib.

Şəbəkənin yaradılmasında əsas məqsəd TDT-nin üzv və müşahidəçi statusunda olan ölkələrinin tarixi şəhər və qoruqları arasında mədəni irsin qorunması, bərpası, birgə təşviqi sahəsində əməkdaşlığın genişləndirilməsidir.

Oktyabrın 9-13-də Bakıda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Türk Dövlətləri Təşkilatı tərəfindən təşkil ediləcək "Yaşanılabilən və dayanıqlı irs şəhərləri" mövzusunda beynəlxalq konfrans çərçivəsində Türk Abidə Menecerləri Şəbəkəsinin təsis edilməsinə dair Bakı bəyannaməsi imzalanacaq.

# Bişkekdə MDB-nin Delfi oyunları

Oktyabrın 6-dan 10-dək Qırğızıstanın paytaxtı Bişkekdə gənclər arasında Müstəqil Dövlətlər Birliyinin (MDB) XVII Delfi oyunları keçiriləcək. Azərbaycan da ənənəvi olaraq bu oyunlarda təmsil edilir.




Delfi oyunlarında 10-25 yaş arası gənclər iştirak edəcək. Onlar xalq, klassik və müasir incəsənətin müxtəlif nominasiyaları üzrə yarışacaqlar. Oyunlar çərçivəsində həmçinin ustad dərsləri, rəsmi və elmi-praktiki tədbirlər keçiriləcək.

MDB-nin iştirakçısı olan dövlətlərin Delfi oyunları milli mədəniyyətin qorunub saxlanılması və inkişafına kömək edilməsi, mədəniyyətlərarası dialoqun təşviqi, ölkələr arasında əlaqələrin möhkəmləndirilməsi, MDB ölkələrinin gənclərinin, yaradıcı ziyalıların və tədris müəssisələrinin əməkdaşlığı məqsədilə keçirilir.

Müsabiqə proqramı fortepiano, skripka, akademik oxuma, solo xalq ifaçılığı, estrada ifaçılığı, xalq rəqsi, nəfəs alətlərində ifaçılıq, təsviri sənət, bədii sənətkarlıq, milli alətlərdə ifa kimi nominasiyalardan ibarətdir.

# NASA Ayda binalar tikməyi planlaşdırır

ABŞ-nin Milli Aerokosmik Administrasiyası – NASA 2040-cı ilədək Ayda bina tikmək niyyətindədir. Bu məqsədlə Yerin təbii peykinə 3D printeri göndərmək planlaşdırılır.



NASA mütəxəssisləri Ay səthindəki tozdan və daş qırıntılarından istifadə edərək beton hazırlayacaq və həmin materialdan orada binalar tikəcək.

NASA bu məqsədinə çatmaq üçün Texas ştatının Ostin şəhərində yerləşən ICON inşaat kompaniyası ilə əməkdaşlığa başlayıb. Onlar Ayda yaşayış binaları, raketlər üçün eniş meydançası inşa etməyə imkan verən tikinti sistemi hazırlayacaq. Layihədə "Bjarke Ingels Group" və "SEArch+" kompaniyalarının memarları da iştirak edirlər.

Xatırladaq ki, astronavtların Aya enməsi 1969-cu ilin iyulundan 1972-ci ilin dekabrına qədər ABŞ-nin "Apollo" proqramı çərçivəsində həyata keçirilib. Həmin vaxtdan bəri Yerin təbii peykinə insan ayağı dəyməyib. NASA 2025-ci ildə start götürəcək "Artemis III" adlanan yeni missiyanın insanları Aya qaytaracağına ümid edir.




Olaylar, faktlar
(6–9 oktyabr)

### 111 il əvvəl...

**9 oktyabr 1912-ci ildə** "Balkan ittifaqı"nda birləşən ölkələrin (Bolqarıstan, Yunanıstan, Serbiya, Çernoqoriya) Osmanlı imperiyasına qarşı müharibəsi başlayıb. Bir neçə əsr Osmanlının tərkibində olan bu ölkələr 1877-1878-ci illərin Balkan müharibəsi nəticəsində nisbi müstəqillik əldə etmişdi. Osmanlı ikinci Balkan savaşında da məğlub oldu və 1913-cü il mayın 30-da Londonda imzalanan sülh sazişi ilə bu əraziləri itirdi.

### 83 il əvvəl...

**8 oktyabr 1940-cı ildə** Hitlerin Avropada işğal yürüşü davam edib. Almaniya qoşunları Rumıniyanı işğal edib, Rumıniya kralı ölkədən qaçıb.

### 74 il əvvəl...




**7 oktyabr 1949-cu ildə** SSRİ-nin nəzarətində olan Şərqi Almaniyada müstəqil dövlətin – Almaniya Demokratik Respublikasının yarandığı elan edilib. Bundan öncə (23 sentyabr 1949-cu il) Qərb müttəfiqlərinin (ABŞ, Britaniya və Fransa) sektorunda Almaniya Federativ Respublikası yaranmışdı.

### 61 il əvvəl...

**9 oktyabr 1962-ci ildə** Britaniyanın Şərqi Afrikadakı protektoratı olan Uqanda müstəqilliyini elan edib.

### 55 il əvvəl...

**10 oktyabr 1968-ci ildə** İspaniyanın Mərkəzi Afrikadakı müstəmləkəsi olan Qvineya müstəqilliyini (Ekvatorial Qvineya Respublikası) elan edib.

### 42 il əvvəl...

**6 oktyabr 1981-ci ildə** Misir Prezidenti Ənvər Sədat Qahirədə keçirilən hərbi parad zamanı sui-qəsd nəticəsində öldürülüb. Misir rəhbəri İsraillə sülh bağlamasına görə terrora tuş gəlmişdi. 1978-ci ildə ABŞ-nin vasitəçiliyi ilə imzalanan sülh sazişinə əsasən, İsrail işğal etdiyi Sinay yarımadasını Misirə qaytarmış, Misir isə İsrail dövlətini tanımışdı. Bir sıra müsəlman dövlətləri Ənvər Sədatın addımını Fələstinin taleyinə xəyanət kimi qiymətləndirdi.

### 32 il əvvəl...

**9 oktyabr 1991-ci ildə** Ali Sovet "Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələri haqqında" qanun qəbul edib. 1998-ci ilədək 9 oktyabr Azərbaycanda Milli Ordu günü kimi qeyd olunurdu. Həmin il Prezident Heydər Əliyevin imzaladığı fərmanla Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaranma tarixi (26 iyun 1918-ci il) Silahlı Qüvvələr Günü kimi elan edildi.

### 31 il əvvəl...

**9 oktyabr 1992-ci ildə** Bakıda, "Azadlıq" meydanında Azərbaycan Milli Ordusunun ilk hərbi paradı keçirilib.

### 26 il əvvəl...




**9 oktyabr 1997-ci ildə** Strasburqda Avropa Şurasının sammiti çərçivəsində Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova prezidentlərinin görüşü keçirilib. Regional təhlükəsizlik və əməkdaşlıq sahəsində yeni məşvərətçi formatın – GUAM qrupunun yaradılması qərara alınıb.

**10 oktyabr 1997-ci ildə** Strasburqda Azərbaycan və Ermənistan prezidentləri Heydər Əliyev və Levon Ter-Petrosyan arasında keçilən görüşdən sonra iki lider bəyanatla çıxış edərək Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair ATƏT Minsk qrupu həmsədrlərinin "mərhələli həll" planını qəbul etdiklərini bildiriblər. Bundan sonra Ermənistanda Ter-Petrosyan əleyhinə çıxışlar başladı və o, 1998-ci ilin yanvarında istefa verdi.

### 22 il əvvəl...

**7 oktyabr 2001-ci ildə** ABŞ Əfqanıstanda antiterror əməliyyatına başlayıb. 11 sentyabr terroruna cavab olan və ABŞ-nin əksər müttəfiqlərinin iştirak etdiyi "Əyilməz azadlıq" adlı əməliyyat 2002-ci ilin yanvarında Əfqanıstanda "Taliban" rejiminin süqutu ilə başa çatdı. 2021-ci ildə amerikalılar Əfqanıstanı tərk etdikdən sonra "Taliban" yenidən hakimiyyətə qayıtdı.

### 10 il əvvəl...

**9 oktyabr 2013-cü ildə** Azərbaycanda növbəti prezident seçkiləri keçirilib. MSK-nın məlumatına görə, 10 namizədin iştirak etdiyi seçkidə İlham Əliyev (YAP) 84,55 % səs toplayaraq üçüncü müddətə dövlət başçısı seçilib.

**Hazırladı: V.Orxan**

# Məktəblərdə mobil telefonlara qadağa

## Böyük Britaniya Təhsil Nazirliyi tərəfindən...

Böyük Britaniyanın təhsil naziri Cillian Kiqan İngiltərə məktəblərində mobil telefonların qadağan olunmasını tövsiyə edib. Təhsil Nazirliyinin dərc etdiyi kommünikeyə əsasən, bu tədbir destruktiv davranışla mübarizəyə kömək göstərəcək və məktəblilərin diqqətini təhsilə cəlb edəcək.

Mobil telefonlardan istifadənin bütün dərs günü ərzində, o cümlədən tənəffüslərdə də qadağan edilməsi təklif olunur. Əgər məktəblər bu tövsiyəyə əməl etməsələr, hökumət qadağanın məcbur edilməsi barədə qanunverici aktı müzakirəyə çıxaracaq.

Böyük Britaniya hökumətinin məlumatına görə, hər üç məktəblidən biri dərslərdə mobil telefonlardan istifadə edir.

Qeyd edək ki, smartfonların məktəblərdə istifadəsinin tədrisə mənfi təsiri nəzərə alınaraq bir sıra ölkələrdə (Fransa, İtaliya, Portuqaliya) analoji qadağalar qüvvəyə minib.

"Mədəniyyət" qəzetinin kollektivi Mahir və İntiqam Hümbətov qardaşlarına ataları

**Rəsul Hümbətovun**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti, professor Firəngiz Əlizadə və ittifaqın idarə heyəti tanınmış musiqişünas

**Nailə Mehdiyevanın**

vəfatı ilə əlaqədar ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2611
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641